www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 iyul 2014-cü il Çərşənbə axşamı № 179 (5888) Qiymət 40 qəpik

**Xəbər**

## Bir ana doğuş zamanı, biri isə abortdan sonra öldü

yazısı səh.14-də

**Gündəm**

### Hüquq müdafiəçisi məhkəmə zalında həbs edildi


Həsən Hüseynli

"Kamil Vətəndaş" Mərkəzinin rəhbəri Həsən Hüseynliyə 6 il cəza kəsildi; "Mən bu işdə günah etmiş hər bir kəsi tövbəyə çağırıram"

yazısı səh.6-da

### Partiya sədri Aydın Abbasovu deputat mandatından imtinaya çağırdı

yazısı səh.4-də

### Bakıda üç idmançının silahlı "razborka"sının təfərrüatları

yazısı səh.6-da

### Ermənistan Rusiyanı şantaj etməyə çalışır

yazısı səh.8-də

*Fazil Mustafa:*

### "AXCP Elçibəylə birlikdə gedib"

yazısı səh.12-də

### Türkmənistan "yeni SSRİ"yə daxil olmaqdan imtina etdi

yazısı səh.8-də

### "Ağ şəhər"i tikən Koreya şirkətinin nümayəndələrini Bakıda soydular

yazısı səh.13-də

### Azərbaycan siyasi elitasının London "fəthi"nin sirri...

yazısı səh.5-də

### Tanınmış fizik MEA rəhbərliyini saxtakarlıqda ittiham etdi

yazısı səh.10-da

### Milli Şurada seçkilərlə bağlı ikitirəlik var

yazısı səh.11-də

**Ramazan ayının 17-ci günü**

İİftar 21.26 İmsaq (azan) 4.56 (QMİ-nin cədvəli)

17-ci günün duası: "İlahi, bu gün məni yaxşı əməllərə yönəlt! Belə bir gündə mənim bütün arzu və ehtiyaclarımı ödə! Ey, izahlara ehtiyacı olmayan Allah! Ey, hamının qəlbində olanları bilən, salamın olsun Məhəmməd (s) və onun pak Əhli-beytinə (ə)!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Türkiyəyə daşınan narkotiklə Azərbaycanın məşhur şirkətinin mübhəm əlaqəsi

# GÜRCÜSTANDA TUTULAN 3 TON HEROİNLƏ BAĞLI YENİ ŞOK TƏFƏRRÜATLAR

Saflaşdırılmış heroini «FAB» boyasının qablarında, bu şirkətə məxsus maşında daşıyıblar; Gürcüstan hökuməti təcili toplaşıb məsələni müzakirə etdi; Azərbaycanın Dövlət Sərhəd Xidmətindən və Dövlət Komissiyasından "Yeni Müsavat"a heyrətamiz açıqlamalar

yazısı səh.9-da



# Vasif Talıbov Naxçıvana "85" qadağası qoydu

MR Ali Məclis sədrinin göstərişi ilə əhalidən yığılan köhnə maşınlar «NAZ»da əridilərək istifadə olunacaq; Naxçıvanda yeni marka avtomobil buraxılacaq

yazısı səh.11-də


Eldar İbrahimov

### YAP-çı deputatdan partiyadaşına ağır ittihamlar

yazısı səh.5-də



### Əhəd Abıyev oğlunun "intihar" xəbərindən danışdı

yazısı səh.6-da



*Zəfər Quliyev:*

### "Nədənsə mənə elə gəlirdi ki, 63 yaşa çata bilməyəcəm"

yazısı səh.3-də

# 15 iyul 2014

YENİ MÜSAVAT
N 179 (5888) 15 iyul 2014



# Bakıda həbsxanada nikah mərasimi keçirildi

**Ədliyyə Nazirliyinin Penitensiar xidməti ilə "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi"nin birgə hazırladıqları tədbirlər proqramı çərçivəsində cəzaçəkmə müəssisəsində nikah mərasimi keçirilib. lent.az-ın məlumatına görə, Penitensiar Xidmətin 3 saylı istintaq təcridxanasında saxlanılan məhkum İsmayılov Vüqar Qədir oğlunun və yaxınlarının müraciəti əsasında Penitensiar Xidmətin rəhbərliyi onun nikah mərasiminin keçirilməsi üçün müvafiq şərait yaratmışdır.**

Bu gün təcridxananın inzibati binasında 4 saylı Bakı "AsanXidmət" mərkəzinin qeydiyyat şöbəsinin müdiri Rəşidə xanım Məmmədova tərəfindən İsmayılov Vüqar Qədir oğlunun vətəndaş İbrahimova Firəngiz Arazi qızı ilə nikahı qeydə alınıb.

Yeni ailə quran gənclər yaradılmış şəraitə görə Ədliyyə Nazirliyinin və "ASAN xidmət"in rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd edək ki, bu nikah son vaxtlar cəzaçəkmə müəssisələrində rəsmiləşdirilmiş 3-cü evlilikdir.

# Rus qoşunlarının Ukraynaya girəcəyi gün açıqlandı



**Ukrayna hərbi araşdırmalar mərkəzinin rəhbəri Dmitri Timçuk jurnalistlər üçün keçirdiyi mətbuat konfransında açıqlama verərək bildirib ki, 15 iyulda Rostov şəhərində olan rus qoşunları Ukraynaya hücum edəcək.**

Avropa.info-nun məlumatına görə, Timçuk deyib ki, Rusiya qoşunlarının iyulun 15-də Rostov şəhərində olan hərbiçilərini və texnikasını Ukraynaya daxil edəcəyi barədə dəqiq məlumat əldə ediblər. O deyib ki, hazırda Rostovda olan rus hərbi bazalarına Rusiyanın başqa bölgələrindən qoşun və xüsusi təyinatlılar gəlməkdədir: "Ruslar Ukraynaya daxil edəcəkləri qoşunları sülhməramlı adlandıracaqlar və guya Ukraynada olan rus vətəndaşlarını müdafiə etmək üçün Ukraynaya daxil olacaqlar".

**Timçuk qeyd edib ki, separatçılar hazırda Ukrayna ərazisindən Rusiya ərazisini atəşə tuturlar:** "Ukraynada olan separatçılar Kremlin göstərişi ilə Ukraynadan Rusiyaya atəş açmaqdadır, onlar sabahdan etibarən Rusiyanı daha şiddətli formada atəşə tutacaqlar vu rusların Ukraynana müdaxilə etməsi üçün daha bir səbəbə bu amil olacaq".


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**


## Elan

**15 iyul 2014-cü ildə saat 16:00-da Müsavat Partiyasının qərargahında AXC-nin 25 illiyinə həsr olunmuş yubiley tədbiri keçiriləcək. Maraqlananlar və media nümayəndələri dəvətlidir.**


«QAYA MƏTBUAT YAYIMI» MMC!

İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbest seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişiklikler etmək;

Ən başlıcası gündəlik

«Yeni Musavat » qəzetinə–0,40 man

və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

Telefonla zəng etməyiniz kifayətdir:

Bakı şəh. 564-63-45 598-35-22

Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41


# Ərdoğan ailəsinin villaları: kişi və qadın hovuzları...

**Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğana və ailə üzvlərinə məxsus villaların görüntüləri yayılıb. Virtualaz.org saytı Türkiyənin "Sözçü" qəzetinə istinadən xəbər verir ki, Ərdoğana və ailəsinə məxsus olduğu iddia edilən İzmirdəki 2 villanın tikintisi başa çatıb.**

Villaların Ərdoğanın yaxın dostu Lətif Topbaşın adına qeydiyyatda olduğu deyilir.

Qəzetin yazdığına görə, Ərdoğanın qızı Sümeyyə Ərdoğan inşaat işlərinin gedişi ilə şəxsən maraqlanıb və onun istəyi ilə villalarda pərdəli hovuzlar tikilib.

Özəl fotolar əldə edən qəzetin yazdığına görə, villalarda qadınlar və kişilər üçün ətrafı bağlı hovuzlar var.

İzmirin Urla bölgəsində, dəniz kənarında tikilən villaların dəniz daxil olmaqla ətrafı hasarlanıb. Ərdoğanın istəyi ilə villalarda xüsusi ağacların əkildiyi də deyilir.

Məlumata görə, 20 hektara yaxın sahəni əhatə edən villaların həyətində vertolyot enməsi üçün xüsusi ərazi də salınıb.

Qəzet həmçinin xatırladır ki, ötən il dekabr ayının 17-də Türkiyədə həyata keçirilən korrupsiya və rüşvət əməliyyatlarından sonra Ərdoğanın qızı Sümeyyənin telefon danışıqları ortaya çıxmışdı.

Səs yazılarında Sümeyyənin villanın inşası ilə bağlı istəkləri və tikilən hovuzların necə olması ilə bağlı göstərişləri yer alırdı.

Qəzetin yazdığına görə, danışıqlarda Ərdoğanın qızının verdiyi götərişlərin bir-bir yerinə yetirilməsi bu fotolardan aydın görünür.









# İlham Rəhimovun kitabı Türkiyədə nəşr olundu

**Professor İlham Rəhimovun kitabı Türkiyədə dərc olunub. Kitab "Suç ve ceza" adlanır.**

Qeyd edək ki, həmin kitab bundan öncə Rusiyada və Azərbaycanda, müvafiq olaraq rus və Azərbaycan dillərində nəşr olunub.

**Musavat.com**

# Anar Məmmədovun maşını ağacın altında qaldı

**Ağac qırılaraq avtomobilin üstünə düşüb. Axar.az xəbər verir ki, iyunun 14-ü saat 15 radələrində Nəsimi rayonu S.Rüstəm küçəsi ilə N.Vəzirov küçəsinin kəsişməsində ağaclardan biri qırılaraq avtomobilin üstünə düşüb. Hadisədən Azərbaycan Qolf Federasiyasına məxsus "Kİo Rio" markalı avtomobil zərər görüb.**

Ətrafda yaşayan sakinlərin sözlərinə görə, ağaclar vaxtı-vaxtında kəsilmədiyinə görə belə hal baş verib. Xoşbəxtlikdən xəsarət alan olmayıb.

Qeyd edək ki, Qolf Federasiyasının prezidenti Nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovdur.

# TQDK önündə aksiya



**Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının qarşısına toplaşan abituriyentlər və onların valideynləri aksiya keçirməyə cəhd ediblər. Abituriyentlərin ANS PRESS-ə verdikləri məlumata görə, onlar kolleclərə keçirilən qəbul imtahanlarının nəticəsindən narazıdırlar: "Kolleclərə qəbul olmaq üçün tələb olunan keçid balların qaldırıblar. Deyirlər ki, keçid balı 16 olub. Amma biz 28, 32 bal toplamışıq, qəbul olmamamışıq. Niyə kolleclərə keçid balların qaldırıblar? Bizi şikayətimizə baxan yoxdur. Bizi buradan uzaqlaşdırmağa çalışırlar. Yüksək bal toplamağımıza baxmayaraq qəbul olmamışıq".**

Qeyd edək ki, Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) 29 iyun tarixində ümumi orta təhsil bazasında (9 illik) orta ixtisas təhsili müəssisələrinə əvvəlki illərin məzunları üçün qəbul imtahanı keçirib.

# Orxan Zeynalov: "Mən heç kimi öldürməmişəm"

**Moskva sakini Yeqor Şerbakovu qətlə yetirməkdə şübhəli bilinərək həbs olunan Azərbaycan vətəndaşı Orxan Zeynalovun cinayət işi üzrə məhkəmə baxışı davam etdirilib. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, O. Zeynalov Moskva Şəhər Məhkəməsində keçirilən prosesdə ifadə verib.**

O, ifadəsində Y. Şerbakovu qətlə yetirmədiyini söyləyib: "Mən heç kimi öldürməmişəm. Hadisə baş verən gün ümumiyyətlə Moskvada olmamışam. Həmin gün yaşadığım Kolomno şəhərində idim".

İlkin istintaqa verdiyi ifadənin əksinə danışan O. Zeynalov bildirib ki, saxlanılan zaman ona qarşı hüquq-mühafizə orqanları tərəfindən kobudluq olub: "Mən vəhşicəsinə döyülmüşəm. İstintaqa ifadə verən zaman isə özümdə olmamışam. Məni döyürdülər, ona görə də yanlış ifadə vermişəm".

Məhkəmə prosesi sabah davam etdiriləcək.

O. Zeynalovun vəkili Viktor Anikuşkin APA-nın Moskva müxbirinə açıqlamasında bildirib ki, O. Zeynalov məhkəmədəki ifadə ilə müdafiə tərəfinin işini çətinləşdirib: "Əlbəttə ki, biz onun mövqeyini müdafiə edəcəyik".

V. Anikuşkin onu da bildirib ki, sabah prosesdə müdafiə tərəfi məhkəmə-tibbi ekspertinin dindirilməsi vəsatəti ilə çıxış edəcək: "İstintaq materiallarında O. Zeynalovun Y. Şerbakova 20-yə yaxın zərbə endirdiyi bildirilib. Hadisənin baş verdiyi yerdə olan şahidlər isə Y. Şerbakovun üzü üztə asfalta yıxıldığını söyləyiblər. Biz müəyyənləşdirmək istəyirik ki, Şerbakovun üzündə və bədənində olan zədələr asfalta yıxılandan sonra meydana gəlib, yoxsa əvvəl...?!"



# İlham Əliyev İtaliya prezidenti ilə müzakirələr aparıb

**«AzərTAc» xəbər verir ki, prezident İlham Əliyev iyulun 14-ü Romada italiyalı həmkarı Corco Napolitano ilə geniş tərkibdə bir araya gəlib. İtaliya prezidentinin sarayında keçirilən görüşdə Azərbaycanla İtaliya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə edilib. İki ölkə arasında əlaqələrin Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı baxımından önəmi vurğulanıb, Azərbaycanın Avropa Şurasında, İtaliyanın Avropa İttifaqında sədrliyi dövründə səylərin əlaqələndirilməsinin vacibliyi qeyd olunub.**

Söhbət zamanı energetika sahəsində əməkdaşlığın uğurlu inkişaf etdiyi, iki ölkənin beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstək verdiyi bildirilib. Görüşdə Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin müxtəlif aspektləri və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdən sonra Corco Napolitanonun adından İlham Əliyevin şərəfinə nahar verilib.

# Əsir azərbaycanlıya baş çəkən olmayıb

**İşğalçı Ermənistan Respublikasının və separatçı Dağlıq Qarabağ rejiminin hərbi dairələri davamlı açıqlama yayaraq cəbhə bölgəsində, Kəlbəcər istiqamətində Azərbaycan Silahlı Qüvvələrinə aid kəşfiyyat-diversiya qrupunun üzvlərini tutduğunu iddia edir. İndiyəcən yalnız bir nəfərin - 1968-ci il təvəllüdlü Tərtər sakini Quliyev Şahbaz Calal oğlunun adı açıqlanıb və onun fotosu yayılıb. Şahbaz Quliyevin Azərbaycanın işğal olunmuş ərazilərində, yoxsa Ermənistanda saxlandığı bilinmir.**

İyulun 14-də "Media forum" saytı Beynəlxalq Qızıl Xaç Komitəsi təmsilçilərinin Şahbaz Quliyevə baş çəkib-çəkmədiyi ilə maraqlanıb. Qurumun Azərbaycandakı nümayəndəliyinin mətbuat xidmətinin rəhbəri İlahə Hüseynova suala belə cavab verib: "Azərbaycan vətəndaşının saxlanması ilə bağlı yayılan media məlumatları təsdiqlənərsə, Beynəlxalq Qızıl Xaç Komitəsi öz missiyasına uyğun prosedurları həyata keçirəcək. Komitə bu proseduralara uyğun olaraq tərəflərlə dialoq aparır. Hələ ki saxlanılan şəxsə baş çəkilməyib".



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**





# "Mənə elə gəlirdi ki, 63 yaşa çata bilməyəcəm"

## Zəfər Quliyev: "Heç vaxt təqaüdçü həyatı yaşamağı arzulamamışam"

**İyulun 14-də Azərbaycanın tanınmış politoloqlarından Zəfər Quliyevin doğum günüdür. Mən onu tanıyanda o, təxminən mənim indiki yaşımda idi. Bu insan hər zaman kübarlığı, alicənablığı, yüksək intellekti ilə seçilib. Kimliyindən asılı olmayaraq onu heç zaman kiminləsə sərt danışan görməmişəm. Ən qızğın müzakirələrdə belə silahı güclü arqumentləri olub. Zəfər bəy Azərbaycan qəzetçiləri üçün çox arzuolunan şəxsdir. Mediaya açıq, istənilən məsələ ilə bağlı ən son proseslərdən xəbərdar insan hər zaman ələ düşmür.**

### "Musiqi təhsilim olmasa da musiqi bütün həyatım boyu mənim enerji qaynağım olub"

*Yetər ki, onun etika və nəzakət qaydalarına riayət edəsən. Bilməyənlərə deyim, Zəfər bəy telefonu açan kimi salamdan sonra suala keçən müxbirləri sevmir. Öncə o qızıl kəlməni demək lazımdı - "Zəfər müəllim, vaxtınız varmı". Elə biz də müsahibəyə hər dəfə bu sözlə başlayırıq. Keçək ikinci suala...*

***- Zəfər müəllim, neçə yaşınız olur?***

- Pensiya yaşına çatmışam, 63.

***- Daha cavan bilirdim sizi.***

- Açığı, yaşım yadıma düşmür.

***- Gəncliyinizi demirəm, 40-45 yaşınızda 63 yaşı elə belə təsəvvür edirdiniz?***

- Mənim 40 yaşım olanda Azərbaycanda milli-azadlıq hərəkatının ən qızğın dönəmi idi. O zaman yaş haqqında çox fikirləşdiyim yadıma gəlmir. Gənclikdə həmişə fikirləşirdim ki, 21-ci əsr gələndə 50 yaşım olacaq. 21-ci əsri görmək üçün 50 yaşımı çox arzulayırdım. Ancaq 63 yaş heç ağlıma gəlmirdi. Nəyə görəsə elə bilirdim o yaşa çata bilmərəm.

***- Zəfər müəllim, qış demədən, yay demədən səyahət etməyi sevirsiz. Facebook səhifənizdə şəkillərinizə baxdım, çoxu səyahətlə bağlıdır. Bəlkə sizi belə gənc saxlayan təbiətə vurğunluğunuzdu?***

- Yəqin ki, bunun da təsiri var. Səyahəti uşaqlıqdan sevirəm. Atam partiya rəhbərliyində idi, təyinatını tez-tez dəyişirdilər. Uşaqlığım bir neçə rayonda keçib. Balaca olanda atam bizi dağlarda, meşələrdə, bulaq başlarında çox gəzdirib. Sonra rəhmətlik qardaşım Həsən Quliyevlə yola çıxmağa başladıq. O, təbiəti məndən də çox sevirdi. Hər yay çadır götürüb uzunmüddətli səfərlərə çıxırdıq. Hər dəfə özümüzə yeni marşrut seçirdik, bulaq başında, çay qırağında bir neçə gün sivilizasiyadan tam uzaqlaşıb dincəlirdik, axşamlar tonqal qalayıb saatlarla söhbət edirdik. İndi də imkan düşən kimi təbiətə çəkilməyi sevirəm. Şəhərdə də çalışıram ki, təbiət ovqatını saxlayım. Yoldaşım da, mən də bitkiləri, gülləri çox xoşlayırıq. Balkonumuzda çoxlu güllər əkmişik. Təbii, artıq yaşlanırıq, cavanlıqdakı kimi tez-tez getmək olmur, ancaq təbiətə sevgi, bağlılıq qalır.

***- Siz böyük qardaşınız rəhmətlik Həsən müəllimi xatırlatdız. O, Azərbaycanın yaxın tarixinin ən böyük filosoflarından idi. Siz ali məktəbdə filologiya üzrə təhsil almısınız. Sizin fəlsəfəyə, daha sonra isə politologiyaya gəlişinizə Həsən Quliyevin təsiri olubmu?***

- Əslində Həsən də fəlsəfəni sonradan seçib. O, universitetin fizika fakültəsinə daxil olmuşdu. Aspiranturaya gedəndə fiziki problemlərin fəlsəfi aspektlərini öyrənməyə başlamışdı. Həyatının sonuna qədər də fəlsəfə ilə, politologiya ilə məşğul olmağa başladı. Azərbaycan xalqının milli mentaliteti ilə bağlı uzun illər araşdırmalar apardı, sonradan "Turan" İnformasiya Agentliyində politoloq olaraq çalışdı. Mənim də yolum sadə olmadı. Ədəbiyyatı çox sevirdim. Ali təhsilimi rus dili və ədəbiyyatı üzrə almışam. Gəncliyimdə politoloq, analitik olmaq hədəfim yox idi. Bir neçə il ixtisasım üzrə işlədim, ancaq aspiranturaya gələndə qardaşımın məsləhəti ilə fəlsəfə bölümünə gəldim. Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aspiranturasını bitirdim, namizədlik işimi müdafiə etdim, ali məktəblərdə fəlsəfə, sosiologiya dərsi dedim. Milli azadlıq hərəkatı başlayan illərdə isə mənim siyasətə meylim gücləndi. Fəlsəfədən sonra tədricən siyasi proseslərə qoşuldum.

***- Azərbaycanın siyasət dünyasında ən yaxşı həmsöhbətiniz kimdi?***

- Əslində bəlkə mənim özümü də yaxşı həmsöhbət adlandırmaq olmaz. Çünki danışmaqdan çox, dinləməyi xoşlayıram. Bu da bəlkə qardaşımdan keçib. Ancaq konkret suallar olanda ümumi söhbətdə iştirak edirəm. Söhbətini xoşladığım xeyli insan var. Ad çəksəm, bəlkə də doğru olmaz, kimlərsə yadımdan çıxa bilər. Ancaq fərqləndirsək, İsa Qəmbərin, Vəfa Quluzadənin, Rauf Arifoğlunun, Eldar Namazovun adını çəkə bilərəm. İsa bəylə uzun illərdir tanışıq, saysız-hesabsız söhbətlərimiz olub. "Turan" İA-da işləyəndə Vəfa Quluzadə tez-tez qonağımız olurdu, maraqlı söhbətlər aparırdıq, Rauf bəylə, Eldar bəylə son illər çox maraqlı müzakirələrimiz keçib. Ancaq siyahını yalnız bu şəxslərlə məhdudlaşdırmaq istəməzdim - Azərbaycanda yaxşı həmsöhbətlər çoxdur.

***- Zəfər bəy, sizin maraq dairənizdə olan daha bir məsələ var - futbol. İki gün əvvəl başa çatan dünya çempionatı boyu xeyli proqnozlar verdiz, azarkeşlik etdiz. Futbola sadəcə azarkeşlik edirsiz, yoxsa həm də oynamağı sevirsiz?***

- Uşaqlıqdan iki idman növünə marağım olub - futbol və şahmat. Zahirən bir-birindən





### "Pənah bəyə demək lazımdı, mən tələbə ikən universitetlərarası yarışlardakı uğurlarıma görə birinci dərəcəli idman ustası dərəcəsi almışdım"

uzaq idman növləridir, biri çəldlik, hərəkətlilik tələb edir, o biri düşünmək. Ancaq mən onların ikisini də sevirəm. Futbolçu olmaq məqsədim yox idi, ancaq məhəllədə, məktəbdə, institutda, dəniz sahilində, meşədə həmişə futbol oynamışam. İndi də azarkeşlik edirəm. Şahmat da elə. Boş vaxtım olan kimi, xüsusən beynimi dincəltmək istəyəndə şahmat oynayıram.

***- Pənah Hüseynlə şahmat oynamısız?***

- Yox. Adətən kompüterdə oynayıram. Hələlik Pənah bəyi şahmat taxtasında sınamamışam. Amma Pənah bəyə demək lazımdı, mən tələbə ikən universitetlərarası yarışlardakı uğurlarıma görə birinci dərəcəli idman ustası dərəcəsi almışdım (Gülür). Tələbə vaxtı, sonra Elmlər Akademiyasının Fəlsəfə İnstitutunda çalışarkən çox yaxşı şahmat oynayan dostlarım vardı. O zaman akademiyanın demək olar, bütün otaqlarında şahmat oynayırdılar, işçilər öz aralarında yarışlar keçirirdilər.

***- Zəfər bəy, səyahət çantanızda kitab da olur?***

- Bir dəfə Həsənlə Şahdağ tərəfə getməyi qərara aldıq. Özümüz üçün çətin bir ekspedisiya planlaşdırmışdıq. Yola çıxanda mən çantama 4 kitab, şahmat qoydum. Qardaşım dedi ki, o yüksəkliyə çıxanda hər kiloqramın önəmi var, kitablar sənə yük olacaq, yuxarı çıxa bilməyəcəksən. İnad etdim ki, bir həftə kitabsız darıxaram, götürəcəm. Onun sözünə baxmamaq mənə baha başa gəldi. Kitabları açmağa belə vaxt tapmadım. Əslində söhbət çəkidən də getmir. Təbiətə çıxanda insanın oxumağa həvəsi də olmur. Oturub təbiətə baxmaq, yol getmək daha cəlbedicidir. Oxumağı şəhərdə, özü də axşamlar xoşlayıram.

***- Bu gün əlinizdə hansı kitab var?***

- Açığı, yazı-pozu işlərimin çoxluğu gözlərimi bir az zəifləntdib. İnternetdən gündəlik medianı oxuyuram, xarici medianı davamlı diqqətdə saxlayıram, analitik yazıları qaçırmamağa çalışıram, ona görə də əvvəlkilərdən daha az kitab oxumaq imkanım var. Ancaq beynimi dincəltmək, zövq almaq üçün hərdənbir poeziya oxuyuram. İndi daha çox musiqiyə ehtiyacım var.

***- Rəhmətlik Həsən bəy deyirdi ki, gəncliyinizdə nadir musiqi əsərləri kolleksiyanız olub. Hansısa musiqi alətində çala bilirsiz?***

- Musiqi ilə bağlı gülməli bir tarixçəm var. 8-ci sinfə keçəndə evdə üsyan qaldırdım ki, məni hökmən musiqi məktəbinin skripka bölümünə qoymalısız. O zaman bacım məni Yuri Qaqarin adına pioner sarayının musiqi bölümünə apardı. Ancaq biz az gecikmişdim. Çünki musiqi məktəbinə aşağı siniflərdən başlayırdılar. Buna baxmayaraq, məni qəbul elədilər. Ancaq skripka yox, balalayka sinfinə. Dedilər ki, skripka sinfində yer yoxdur, müvəqqəti balalaykaya gəl, sonra yer boşalan kimi səni skripka bölümünə keçirərik. Beləliklə, balalayka sinfində musiqi dərslərinə başladım. Ancaq 1 aydan sonra mənim balalaykadan o qədər zəhləm getdi ki, heç skripka yerinin açılmasını gözləmədən musiqi məktəbindən çıxdım. Musiqi təhsilim olmasa da musiqi bütün həyatım boyu mənim enerji qaynağım olub. Musiqi insan düşüncəsində çox qapılar açır. Mənim üçün musiqi hər şeydi. Gözəl musiqiyə saatlarla qulaq asa bilərəm.

***- Zəfər bəy, qarşıdakı illər üçün hədəfləriniz nədir? Ən böyük arzularınız nə ilə bağlıdır, qarşıdakı 10 il üçün özünüzə ictimai məqsəd müəyyənləşdirmisiz?***

- Şəxsən özümlə bağlı konkret proqramım yoxdur. Həmişə pafosdan çəkinirəm. Ona görə də sözlərimi pafoslu cümlələr kimi qəbul etməyin. Tam səmimi deyirəm, ən böyük arzum Azərbaycanda vəziyyətin sürətlə yaxşılığa doğru dəyişməsidir. Çünki belə bir dəyişiklik olsa, demokratiyaya doğru proseslər sürətlənsə, onun bəhrəsini biz hamımız görəcəyik. Çox istəyirəm ki, bizim Qarabağ, işğal edilmiş bütün Azərbaycan torpaqları azad olunsun. Mən Şuşada olmuşam. Qarabağın gözəl təbiətini yenidən qayıdıb görmək istəyirəm. Bu şablon deyil, daxilimdən gələn istəkdir. Özümlə bağlı arzu isə odur ki, ömrümün sonuna qədər fəal, gərəkli insan olmaq istəyirəm. Heç vaxt təqaüdçü həyatı yaşamağı arzulamamışam. Həyətdə yaşıdlarımla bir yerdə domino, nərd oynamaq, çay içmək mənə görə deyil. İstəyərdim bu fəallığımı həmişə qoruyum, siyasətə, ictimai-siyasi proseslərə maraq məndə daim qalsın, ömrümün sonuna qədər bu proseslərin fəal iştirakçısı olum.

**❑ Aygün MURADXANLI**

**P.S.** *"Yeni Müsavat" ailəsi olaraq Zəfər Quliyevi təbrik edir, cansağlığı, siyasi karyerasında uğurlar, ən əsası da uzun illər medianın əvəzedilməz eksperti olmasını arzulayırıq.*

YENİ MÜSAVAT
N 179 (5888) 15 iyul 2014

# Cəmil Həsənlinin fikirlərinə partiyalardan sərt reaksiya gəldi



**Arif Hacılı:** "Müsavatın müəyyənləşdirdiyi sabit ideoloji xəttə uyğun fəaliyyət göstərəcəklərsə, Milli Şura ilə də əməkdaşlığa hazırıq"



**Sülhəddin Əkbər:** "Cəmil müəllim Milli Şuranı qorumaq əvəzinə, gedənlərin arxasınca danışır"

**Milli Şuranın sədri Cəmil Həsənlinin "Yeni Müsavat"a verdiyi sonuncu müsahibə də maraqla qarşılanıb. C.Həsənli müsahibədə bir çox məsələlərə münasibət bildirib. Həmçinin Milli Şuranı tərk edib gedənlər barədə danışıb. O, Müsavat Partiyası ilə Milli Şuranın gələcək əməkdaşlığı haqda sualı da cavablandırıb.**

Cəmil Həsənlinin Milli Şuranı tərk edən siyasi qurumların ünvanına söylədiyi və əsas narazılıq doğuran fikirlər bunlardır: "Biz bu yolu gedirik, kim bu yolu bizimlə gedə bilirsə, ona minnətdarıq, kim hara qədər gedə bilibsə, onun xidmətlərini qiymətləndiririk, kim artıq gedə bilmirsə, onu da başa düşürük".

Milli Şura sədrinin üstüörtülü, tənqidi ruhda deyilmiş fikirlərinə qurumu tərk edən partiyalardan reaksiyalar gəlib.

**Müsavat Partiyasının İcra Aparatının rəhbəri Arif Hacılı 25 ildən artıqdır ki, düz yolda fəaliyyət göstərdiklərini bildirdi:** "Biz Rəsulzadə-Elçibəy yolundayıq. Bu yolda 25 ildən artıqdır ki, sapmadan, bir addım kənara atmadan yürüməkdə davam edirik. Bu şəkildə də davam edəcəyik. Bizimlə birlikdə, bir yerdə olan qüvvələrlə əməkdaşlıq etmək niyyətindəyik. Milli Şura ilə əməkdaşlıq məsələsinə gəlincə, seçim bu quruma daxil olan ayrı-ayrı siyasətçilərin olacaq. Əgər Müsavat Partiyasının müəyyənləşdirdiyi sabit, ideoloji xəttə uyğun fəaliyyət göstərəcəklərsə, nəinki Milli Şura, eyni zamanda kənarda olan siyasi qüvvələrlə əməkdaşlıq və müttəfiqlik etməyə hazırıq".

**İyulun 8-də Milli Şuranı tərk edən Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər bu addımı atmaqda heç bir məqsəd güdmədiyini deməklə yanaşı, həmçinin MŞ-yə hər zaman mənfi münasibətdə olduğunu söylədi:** "Mən hər zaman mətbuata demişəm, Milli Şuranın yaranmasına münasibətim mənfi olub. Partiyanın qurultayından əvvəl dəfələrlə demişdim ki, qurultaydan sonra Milli Şura ilə bağlı məsələyə toxunacağıq. Yeni bizim oradan çıxmağımız qəfil baş vermədi, bu, gözlənilən idi. Bundan əlavə, Milli Şuranı çoxları tərk edib. O cümlədən Müsavat Partiyası və onun başqanını qeyd etmək olar. Qurumdan çıxmağımıza gəlincə, əvvəla, Milli Şura Azərbaycanın demokratik qüvvələrini tam təmsil etmirdi. İctimai-siyasi legitimliyi yox idi. Xüsusilə İsa Qəmbər başda olmaqla, Müsavat Partiyası, Lalə Şövkət və Liberal Partiyası, Rəsul Quliyev və tərəfdarları, Eldar Namazov və "EL" Hərəkatı Milli Şuranı tərk edəndən sonra bu qurum böyük zərbə almışdı. Onsuz da Milli Şura öz əhəmiyyətini itirmişdi. Əksəriyyət mənim Milli Şuranı tərk edəcəyimi anlayırdı. Sadəcə, gözlədim ki, bu qurum seçkidən sonra aldığı zərbələrdən özünə gəlsin. Təəssüf ki, Cəmil müəllim sədr kimi Milli Şuranı qorumaq, gedənlərlə danışıqlar aparmaq əvəzinə, oranı tərk edənlərin arxasınca danışmaqla vəzifəsini bitmiş hesab edir. Ümumiyyətlə, müxalifətdə sanki "JEK" müdiri vəzifəsi var. İndi, deyəsən, "JEK" müdiri dəyişib".

❑ **Cavanşir ABBASLI**

# "Abbas Abbasov ömür boyu Moskvanın adamı olub"

## İsgəndər Həmidov da Abbas Abbasovun "İstiqlal" ordenindən məhrum edilməsini istədi

**"Bu YAP-çılar qəribə adamlardır, ordeni verən də özləridir. İndiyə qədər bu hakimiyyət xeyli adama "İstiqlal" ordeni verib. Yalnız rəhmətlik Bəxtiyar Vahabzadə, Xəlil Rzadan başqa görün o adamların istiqlaldan xəbərləri var? Artur Rasizadə, Abbas Abbasova "İstiqlal" verilib".**



Abbas Abbasov

Sabiq daxili işlər naziri, istiqlalçı deputat İsgəndər Həmidov baş nazirinin keçmiş 1-ci müavini, "AzerRos" Ağsaqqallar Şurasının sədri Abbas Abbasovun dedikləri ətrafında yaranmış müzakirələrə münasibəti bildirərkən belə deyib. Xatırladaq ki, **Müdafiə Nazirliyi mətbuat xidmətinin keçmiş rəisi, ehtiyatda olan polkovnik Eldar Sabiroğlu** A.Abbasovun SSRİ-nin təbliğatçısı statusunda çıxış edib imperiyanı "evimiz" adlandırmasına sərt reaksiya verib. E.Sabiroğlu həmçinin deyib ki, indi Abbas Abbasov sinəsində Azərbaycanın "İstiqlal" ordenini daşıyır: "Yaxşı olar ki, "İstiqlal" ordenindən imtina etsin. Əgər o, özündə bu cəsarəti tapmırsa, o zaman "İstiqlal" ordeni Abbas Abbasovun əlindən alınsın. Çünki onun bu ordeni daşımağa mənəvi haqqı qalmayıb. Keçmişin xiffətini çəkən belə bir şəxsin indi durub azərbaycanlıları Rusiyanın müdafiəsinə və SSRİ-nin yenidən bərpa edilməsinə səsləməsi, ümumiyyətlə, başadüşülən deyil. Axı onun doğulub boya-başa çatdığı Gəncə şəhərində yetişmiş neçə-neçə ziyalımız SSRİ imperiyasının qurbanı olub. Onları unutmaq olmaz. Ona görə də Abbas Abbasov kimi adamlara xalq öz qəti sözünü deməlidir. Mən təəssüf və təəccüb hissi keçirirəm ki, axı nə üçün bizim ziyalılarımız hələ də Abbas Abbasovun bu hərəkətlərinə susurlar".



İsgəndər Həmidov

**"Yeni Müsavat"a açıqlamasında İ.Həmidov A.Abbasovun SSRİ nostaljisini yaymasını təbii qarşıladığını qeyd edib və belə bir şəxsin "İstiqlal"ı daşımağa mənəvi haqqının çatmadığını vurğulayıb:** "Abbas Abbasov ömür boyu Moskvanın adamı olub. YAP-çılar özləri ordeni veriblər, indi də deyirlər geri qaytaraq. Ancaq geri alsalar, alqışlayaram, lap yaxşı olar. Özü də tək Abbas Abbasov deyil ki. Əgər "İstiqlal" ordenini haqqı çatanlara versəydilər, mən əl çalıb alqışlayardım. Elə adamlara veriblər ki, onların istiqlal mübarizəsindən xəbəri yoxdur, belələri SSRİ-nin saxlanması haqqında referenduma "hə" deyənlərdir". **İ.Həmidov xatırladtı ki, əslində "İstiqlal" ordenini ilk növbədə istiqlal hərəkatında iştirak edənlər, istiqlalımıza səs verən sabiq millət vəkilləri almalıdır:** "SSRİ-nin saxlanması barədə referendumun əleyhinə səs verənlərin heç birinə orden vermədilər. Çünki onlara münasibət başqadır, onlar müxalifətin nümayəndələridir". **İ.Həmidov xatırladtı ki, istiqlalçı deputatlara nəinki orden, heç halal pensiyalarını da verməyiblər:** "Bircə mənə mükafat verdilər - 10 il həbs".

**Qeyd edək ki, A.Abbasovun oğlu, Milli Məclisin deputatı Aydın Abbasov məsələ ilə bağlı aznews.az-a açıqlama verərək E.Sabiroğlu adlı adamı tanımadığını deyib:** "Hə, o Müdafiə Nazirliyindən qovulan Eldar Sabiroğlunu deyirsiniz? O kimdir ki "İstiqlal" ordenindən danışır? Nə deyibsə, Allah canını sağ eləsin. Ramazan ayı mübarək, süfrəsi ruzi bərəkətli olsun. Allah ürəyinə görə versin".

❑ **Cavid TURAN**

# Partiya sədri Aydın Abbasovu deputat mandatından imtinaya çağırdı

## Əli Əliyev Abbas Abbasovun vətəndaşlıqdan çıxarılmasını təklif etdi



Aydın Abbasov

**Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev özünün facebook səhifəsində baş nazirin sabiq 1-ci müavini Abbas Abbasovun Azərbaycanın dövlət müstəqilliyinə saygısız mövqeyinə və ölkə hakimiyyətinin bu cür insanlara dövlətin ali mükafatını verməsinə sərt münasibət bildirib.**

Əli Əliyev deyib ki, Abbas Abbasov son bir il yarımda Kreml parlamentari rolunda çıxış edərək, dövlət müstəqilliyimizdən narahatlığını açıq şəkildə ifadə edir: "Adıçəkilən şəxsə qarşı heç bir xüsusi şəxsi münasibətim mövcud deyil, həmişə ona YAP işbazlarından biri kimi baxmışam. Lakin onun hakimiyyət uzunömürlülüyü diqqətimi cəlb edirdi. Çünki 3 fərqli ideoloji iqtidarla "dil tapmaq" onun siyasi çevikliyindən xəbər verir.

Ötən prezident seçkisi ilində vaxtaşırı dövlətçiliyin əleyhinə bəyanatlar səsləndirir, Milli Şuranın sədri, prezidentliyə o vaxtkı namizəd İbrahimbəyovla Rusiyada müxtəlif tədbirlər keçirir, Kremlin Azərbaycanda hakimiyyət dəyişikliyi layihəsində fəal rol alan şəxslərdən biri kimi fəaliyyət göstərirdi. Milli Şura - "Milyarderlər klubu" - Kreml triadasının əlaqələndiricisi ampluasında çıxış edən keçmiş YAP funksioneri, bu fəaliyyətini Putinin Bakıya 13 avqust tarixli səfərinə qədər davam etdirdi.

İndi görün bu "ağsaqqal istiqlalçı" nə deyir: "Biz bir dəfə doğma ölkəmizi dağıtmışıq.



Əli Əliyev

Çox təəssüf ki, SSRİ adlı evimizi müxtəlif "milli mənzillərə"bölдük. Belə unikal ölkə bir daha ələ düşməyəcək. Gəlin Rusiya Xalqları Milli Məclisinin ətrafında birləşək, milli-mədəni muxtariyyətimiz üzrə hərəkət edək".

Keçmiş YAP-çının dövlət müstəqilliyimizin yaranmasına keçirdiyi dərin təəssüf notlarına diqqət yetirin. Milli dövlət qurulması uğrunda millətin cənub-lu-şimallı verdiyi mücadilə, tökülən qanlar, sınmış milyonlarla tale bu adama vız gəlir. Çünki bu adam üçün milli hiss və anlayış mövcud deyil".

**Əli Əliyev məsələnin digər maraqlı tərəfinin çoxlarının A.Abbasovun nankorluğuna susması olduğunu qeyd edib:** "Bircə Eldar Sabiroğlu məsuliyyəti dərk edərək, YAP-ın reputasiyasını qorumağa cəhd edir. Eldar bəyin "İstiqlal" ordenindən Abbasovun məhrum edilməsi təklifinə qoşulmaqla yanaşı, ölkə başçısını həmin şəxsin vətəndaşlıqdan məhrum edilməsi prosedurlarına başlanılması barədə göstəriş verməsini, deputat Aydın Abbasova isə Milli Məclisdən istefa verməyi təklif edirəm. Fikrimcə, bu gün Azərbaycan dövlətçiliyinə qarşı açıq təbliğat aparan atasının hərəkətlərindən sonra o, belə mötəbər qurumda əyləşmək hüququnu itirib".

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 179 (5888) 15 iyul 2014

**Hakim Yeni Azərbaycan Partiyasının (YAP) "ağır toplarından" biri olan Milli Məclisin və YAP Siyasi Şurasının keçmiş üzvü, Xızı rayonunun sabiq icra başçısı Maksim Musayev yenə də sərt açıqlamaları ilə gündəmin baş qəhrəmanına çevrilib. Əvvəlki illərdə də hakim partiyanın rəhbər şəxslərini ciddi şəkildə tənqid edən M.Musayev YAP rəhbərliyindəki şəxslərin ünvanına yenidən ittihamlar səsləndirib.**

# YAP-çı deputatdan partiyadaşına ağır ittihamlar

## Eldar İbrahimov: "Heç olmasa öz yaşından utanmalıdır"

**Maksim Musayev** virtualaz.org saytına müsahibəsində bildirib ki, o, heç vaxt YAP-ın özünə qarşı çıxmayıb, amma partiyanın rəhbərliyində yer alan şəxsləri, daha konkret desək, Əli Əhmədovu, Eldar İbrahimovu və Siyavuş Novruzovu tənqid edib və bundan sonra da tənqid edəcək. "Çünki ölkənin ən böyük siyasi təşkilatı olan YAP-ı məhz bu adamlar - Əli Əhmədov, Eldar İbrahimov və Siyavuş Novruzov indiki tənəzzül vəziyyətinə gətirib çıxarıb" deyən qocaman YAP-çı bildirib ki, o, bu gün özünü bəzən hətta heç YAP üzvü də adlandırmaq istəmir: "Mən Heydər Əliyev Partiyasının üzvüyəm və ömrümün sonuna qədər də belə qalacağam".

**M.Musayev öz partiyadaşlarının ünvanına ağır ittihamlar da səsləndirib:** "Biz bu partiyanı yaradanda Əli Əhmədovla Siyavuş Novruzov harada idilər? O zaman müxalifət düşərgəsinə sığınan Əli Əhmədov bizi, ilk YAP-çıları yeri gəldi-gəlmədi söyür, hər şeyə görə günahlandırırdı. İllər sonra mən Etibar Məmmədovdan soruşdum ki, AMİP Əli Əhmədovu öz sıralarından niyə xaric etdi? Etibar Məmmədov da dedi ki, Əli Əhmədov öz vəzifəsinin öhdəsindən, sadəcə olaraq, gələ bilmirdi, ona görə çıxardıq. YAP Əli Əhmədovun üzv olduğu artıq üçüncü partiyadır. O, AMİP üzvü olana qədər də kommunist idi. Mən bunu qətiyyən istisna etmirəm ki, əgər nəsə bir hadisə baş versə, Əhmədov o dəqiqə YAP-ı da tərk edib başqa bir partiyaya keçəcək".

*M.Musayevin konkret ittihamlarına "91-lər"in üzvü, YAP-ı yaradanlardan biri, deputat Eldar İbrahimovun münasibətini soruşduq:*

***- Eldar müəllim, Maksim Musayev deyib ki, ölkənin ən böyük siyasi təşkilatı olan YAP-ı məhz bu adamlar - Əli Əhmədov, Eldar İbrahimov və Siyavuş Novruzov indiki tənəzzül vəziyyətinə gətirib çıxarıb. Onun dediklərinə sizin cavabınız maraqlıdır...***

- Onun dediklərinə heç bir reaksiya vermək istəmirəm. Partiyanın yaradılması prosesində Əli Əhmədov da, Siyavuş Novruzov da, Eldar İbrahimov da iştirak edəndə o, özü hardaydı, yaxşı bilir. Ona görə də onun partiya ilə əlaqədar danışmağa heç bir haqqı yoxdur. Mən bundan artıq bir söz demək istəmirəm. Heç ümumiyyətlə, onun danışıqlarına cavab vermək istəmirəm.

***- Sizin şəxsi münasibətlərdə problem olduğunu demək olarmı, yoxsa bu gərginliyin səbəbi başqadır?***

- O elə şəxsi münasibətlər əsasında belə danışır. Özü də boş-boş danışır. Yəqin ki, yaşı ilə əlaqədardır. Ola bilər ki, hansısa problemləri-zadı var. Ola bilər, insandır. Nə mən, nə adını çəkdiyiniz adamlar ona məhəl qoymuruq. Nə danışır-danışsın. Hamı hamını yaxşı tanıyır.

***- O sual edib: "Biz bu partiyanı yaradanda Əli Əhmədovla Siyavuş Novruzov harada idilər?" Bəlkə bu suala siz cavab verəsiniz.***

- Əli Əhmədov Xalq Cəbhəsinin ən güclü vaxtında universitetdə müəllim işləyirdi. O, "91-lər"in üzvü kimi iştirak etdi, amma Maksim Musayev qaçıb Xızıda gizlənmişdi. Düzdür, Maksim Musayev Naxçıvana gəlib, partiyanın qurultayında iştirak edib. Mən Naxçıvandaydım, gəlib-gedən adamları görürdüm. Ancaq ondan sonra Maksim Musayev yox olub. Biz hakimiyyətə gələndən sonra isə o, Xızıda başçı işləyirdi. Xızıdan işdən çıxarılandan sonra təzədən gəldi ki, "partiyanı yaradanlardan biri mənəm". O, partiya yaratmayıb. Heç kəs partiya yaratmayıb. YAP-ı yaradan Heydər Əliyev, Heydər Əliyevin ətrafındakı insanlar olub. O insanlardan, minlərlə adamlardan biri də Maksim Musayev olub. Burda nə var ki?



**"Əli Əhmədov Xalq Cəbhəsinin ən güclü vaxtında "91-lər"in üzvü kimi iştirak etdi, amma Maksim Musayev qaçıb Xızıda gizləndi"**

***- O, daha çox Əli Əhmədovun AMİP-in üzvü olmasına istinad edir. Bu barədə fikriniz nədir?***

- Əli Əhmədov haqqında o, nə deyirsə, bunlar böhtandan başqa bir şey deyil. Heç olmasa öz yaşına hörmət etməli, yaşından utanmalıdır, belə danışmamalıdır.

***- Maksim Musayevin sözlərinə görə, Heydər Əliyev daim köhnə YAP-çıları nümunə göstərib, onlara qarşı diqqətli davranıb. Dediyindən belə çıxır ki, köhnə YAP-çılara qarşı münasibətdən narazıdır...***

- Onun fikirləri boş, cəfəngiyyatdır. Danışır da, insandır. Yaşlı adamdır, nə deyə bilərəm?

***- YAP-ın "köhnə qvardiyası"na münasibət sizi necə, qane edirmi?***

- YAP-ın "köhnə qvardiyası"na münasibət çox yüksək səviyyədədir. Partiyanın rəhbəri başda olmaqla, icra katibliyi də hamıya yaxşı münasibətdədir. Amma kim bu münasibəti fərqli görürsə, özü bilər. Münasibət pis olsaydı, "köhnə qvardiya"nın üzvü Zahid Qaralovun bu günlərdə 80 yaşı o cür yüksək səviyyədə qeyd olunmazdı. "Şərəf" ordeni verildi, bundan artıq nə olacaq? Maksim Musayev də özünü düz-əməlli aparsın, bir ayaq yeri qoysun. Partiyada ayaq yeri, üz qoymayıbsa, indi kimə nə danışır ki?

***- "Özünü düz-əməlli aparsın" deyərkən nəyi nəzərdə tutursunuz? Yəni necə..?***

- Boş-boş danışmasın, partiya ilə əlaqədə olsun. Partiya Naxçıvanda yarananda heç vaxt onun yanında olmayıb. Partiya aparatına gəlməyib, partiya ilə əlaqə saxlamayıb. Buna görə mən günahkaram? Çağırıb deməliydim ki, hardasan gəl? Gəlməyib, özü bilər.

***- Maksim Musayev bildirib ki, YAP İdarə Heyətində, Siyasi Şurasında partiyadaxili diskussiyalar, siyasi dialoq mühiti məhv edilib. Sizə ünvanlı belə bir sualı da var: "Adını çəkdiyim adamlar indi cavab versinlər görək, onlar o böyük liderimizin bu tövsiyə, nəsihət və vəsiyyətinin ziddinə gedərək partiya daxilindəki demokratik təsisatları, demokratik mühiti niyə məhv etdilər?" Bu suala necə cavab verərdiniz?***

- Azərbaycan xalqı yaxşı bilir ki, bu gün bizim partiyada demokratik mühit hansı səviyyədədir. Onun deməyi ilə deyil ki, demokratik mühit məhv olub, ya nə olub. Yenə deyirəm, ağsaqqal adamdır, mən ona başqa söz demək istəmirəm. Hamı hamını yaxşı tanıyır, bilir kim kimdir və partiyada o mühiti yaradan adamlar kimdir. Ona görə də mən onun danışıqlarını boş, cəfəngiyyatdan başqa bir şey hesab etmirəm və bu barədə heç danışmaq da istəmirəm.

***- Bu gün YAP-da Maksim Musayev kimi düşünənlər, sizcə, nə qədər olar?***

- Heç nə qədər. Bu gün bu cür düşünən bir nəfər varsa, o da Maksim Musayevdir. Baxın, görün ondan başqa danışan varmı? İkinci belə bir adam yoxdursa, tək odursa, deməli, o, özünü aparıb həkimə göstərməlidir. Həm də danışmaq üçün konkret mövzu, tribuna lazımdır. Boş-boş danışır da. Yaşına uyğun hərəkət etmir.

***- Amma hər halda, onu partiyaya dəvət edib dinləyə də bilərdiniz...***

- Dəfələrlə dəvət ediblər, amma o, partiyaya gəlməyib.

***- Bəs Maksim Musayev tənqidi fikirlərinə görə YAP-dan çıxarıla bilərmi?***

- Neynirik onu partiyadan xaric edirik? Guya onun partiyada olub-olmaması çox vacibdir? Böyük fiqurdur ki, partiyada olsun? Hələ bilinmir ki, onun partiyada adı, ya özü var, üzvlük haqqı verir, ya yox, hansı təşkilatda qalır. Şəxsən mənə məlum deyil...

**P.S.** *"Yeni Müsavat" olaraq Maksim Musayevin də cavab haqqını tanıyırıq.*

❑ **Elşad PAŞASOY**



# Azərbaycan siyasi elitasının London "fəthi"nin sirri...

## **Fazil Mustafa:** "İngiltərədə mülkiyyət toxunulmazlığına ciddi əməl olunur"

## **Həmid Herisçi:** "Londonda gizli dünya hökuməti ilə əlaqələr var"

**İqtidar Avropanın siyasi episentri olan İngiltərənin paytaxtı Londonu "fəth" edir. Hökumətin ən yuxarı eşelonunda təmsil olunanlar, yüksək çinli məmurlar və övladları Londona toplaşırlar. Dünyanın siyasi mərkəzlərindən olan London azərbaycanlı nazirlərin, övladlarının, o cümlədən iqtidarda vaxtilə təmsil olunmuşların yurduna çevrilib.**

Fövqəladə hallar naziri Kəmaləddin Heydərovun, baş nazirin müavini İsmət Abbasovun oğlanları, sabiq deputat Rza İbadov, prezidentin bacısı Sevil Əliyeva Londonda yaşamağı seçiblər. Hətta müxalif liderlər arasında övladları, ailələri Londonda yaşayanlar var.

Amma bu, istisnadır. Əsasən hakimiyyət düşərgəsində olanlar ingilis paytaxtını niyə seçirlər? Bu seçimin səbəbi və sirri nədədir? Birjaların, siyasi institutların, bank sektorunun, təhsil mərkəzlərinin bu Avropa şəhərində daha güclü və mükəmməl işləməsidirmi? Bəlkə Avropanın elitasının, aristokratiyasının, kübar və zəngin adamlarının toplaşdığı yer olduğu üçün bu şəhərə üstünlük verilir?

**Deputat Fazil Mustafanın fikrincə**, bu, daha çox İngiltərədə mülkiyyət toxunulmazlığına ciddi əməl olunması ilə əlaqədardır. F.Mustafanın sözlərinə görə, Azərbaycanda geniş imkanı olanlar bu mərkəzdə mülkiyyət almaq fürsətindən istifadə edirlər, iqtisadi idarəetməyə qatılmaq üçün fəaliyyət göstərirlər. Deputat İngiltərənin təlatümlər yaşamayan, sabit, müharibəsiz bir ölkə olmasını da xüsusi vurğuladı: "Mülkiyyət toxunulmazlığı bu səviyyədə Rusiyada qorunsaydı, bu ölkəyə axın olardı. Hətta Amerika belə son dərəcə etibarlı deyil. Nə vaxtsa bank hesablarını dondurması təhlükəsi var. Bu baxımdan azərbaycanlı milyonerlər kapitalını Avropaya daşıyır, bu qitənin etibarlı ölkələrinə banklara hesablarını yatırır". **F.Mustafa Londonda elitar ab-havası olmasını da səbəblərdən biri sayır:** "Eyni zamanda Avropanın siyasi qəlbi Londonda döyünür. Bu baxımdan bu şəhərə maraq var. Səbəblər burdan qaynaqlanır".

**Yazıçı-publisist Həmid Herisçi deyir ki, bunu bilmək üçün ingilis yazıçısı Konan Doylun Şerlok Holms əsərinə baxmaq lazımdır. Yazıçının sözlərinə görə, həmin əsərdə İngiltərənin aşkar və gizli hökumətlərindən bəhs olunur:** "Həmin kitabı oxuyanda London sirri açılır. Əsərdən bilmək olur ki, İngiltərədə iki hökumət var. Doktor Vatsın hökuməti üzdə olanıdırsa, Şerlok Holms gizli hökumətdir. Şerlok Holms kraliça ailəsinə bağlıdır. Dünya hökuməti də həmin kraliça ailəsi ilə sıx əlaqədədir. Postsovet ölkələrinin siyasi elitasının Londona toplaşması haqda Qazaxıstanda bir dəfə yaxşı fikir səsləndirmişdilər ki, İngiltərədə gizli dünya hökumətində 300 ailə təmsil olunur.

Və qazax müxalifətçiləri yumorla danışırdılar ki, ölkədə 3 rus, yəni 300 tayfa ölkəni idarə edir. Onlar ironiya ilə sual edirdilər ki, Qazaxıstanı idarə edən bu 300 rus ailə niyə dünya hökumətində olan Londondakı həmin 300 ailə ilə təmas qurmasın?! Bir az yumorla deyilən fikir idi, amma həqiqət payı vardı".

**H.Herisçi Azərbaycan siyasi elitasının London marağını da gizli dünya hökumətinin 300 ailəsi ilə bağlayır:** "Bizim milyonerlər, hökumət adamları Londonu çox sevirlər. Ora gedənlər özlərinə vəkil tuturlar. Vəkil bütün işləri düzəldir, dünya hökumətində olan 300 ailə ilə əlaqələr yaratmağa kömək edir Həmin vəkillər detektiv əsərlərin qəhrəmanı olurlar, sonra müəmmalı şəkildə ölürlər və talelərindən xəbər olmur.

Bir tərəfdən də Azərbaycan neft ölkəsidir, İngiltərə ilə əlaqələrimiz strateji mahiyyət daşıyır. Tarix boyu ingilislər Azərbaycanla maraqlanıblar. Bu, ADR dövründən daha qədim tarixə gedib çıxır. Onlar Şamaxı, Gəncəyə tez-tez gəliblər, ingilislərin də Azərbaycana marağı olub.

❑ **E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 179 (5888) 15 iyul 2014



# Mundialın qalibi - ŞKXDR yığması

Xalid KAZIMLI

**Beləsi tarix boyu görünməmişdi, Şimali Koreyada oldu. Söhbət dövlət televiziyası ilə uydurulan böyük bir yalandan və bunun 21-ci əsrdə milyonlarla insana təqdim edilməsindən gedir.**

Məsələ belədir: bir neçə gün öncə Şimali Koreyanın dövlət televiziyasının diktoru xəbərlər bülletenində elan edib ki, bu ölkənin dünya çempionatına qatılmış komandası qrupdakı rəqiblərinin hamısına qalib gəlib və növbəti mərhələyə çıxıb. Televiziyanın yüz min gözəl içindən seçilmiş gözəl diktoru ölkənin gənc lideri Kim Çen Inın futbolçuların oyununu izləməsini və nəticələrdən məmnun qaldığını da xəbər verib. Bütün bu məlumatlar müvafiq süjetlərin nümayişi ilə müşayiət olunub.

İndi dünya ictimaiyyəti şokdadır. Bu yalanın mabədinin necə olacağı bilinmir. Bəlkə də artıq Şimali Koreya camaatı Braziliyada keçirilən mundialın qalibinin Almaniya yox, əslində mundiala vəsiqə qazanmayan ŞKXDR komandası olduğu barədə informasiya alıblar və kütləvi şadyanalıq edirlər.

21-ci əsrdə bu qədər asanlıqla darmadığın oluna biləcək yalan.

Beləcə, Kim İr Senin sülaləsi ayrıca götürülmüş bir ölkəni sözün birbaşa mənasında həbsxanaya çevirərək dünyadan təcrid edib. Bu ölkənin müasir telekommunikasiya vasitəsilə xarici dünya ilə bağlantısı yoxdur. İnterneti yox, sosial şəbəkələri yox, azad mediası yox, peyk antenləri yox. ŞKXDR əhalisi üçün dünya Koreya yarımadasının şimalından ibarətdir, dünyanın paytaxtı, baş şəhəri Pxenyandır, yarımadanın cənubunda qardaş düşmənlər var, dünyanın ən böyük siyasətçisi Kim Çen Indır, ABŞ və böyük dövlətlər onunla hesablaşırlar, hətta ondan qorxurlar və s.

Bir sözlə, xalqı qapalı bir tövləyə dolduraraq zombiləşdiriblər, plastır kütləsinə çeviriblər və yoğuraraq istədikləri şəklə salırlar, istəyəndə ağladırlar, istəyəndə ac-acına oynadır, şadyanalıq edirlər. Dünyanın ən qəddar və kütləvi eksperimenti Şimali Koreyada həyata keçirilib və baş tutub. Bu eksperiment göstərir ki, dünyanın ən itizəkalı xalqını cəmi altmış il ərzində kütləvi şəkildə manqurta, sürüyə, kütləyə döndərmək olar. Koreyanın şimalındakı və cənubundakı insanların həyatları, rifahları, düşüncə tərzləri arasındakı müqayisəolunmaz fərqlər bunu sübut edir.

Əlbəttə, bu tipli rejimlərin hamısı xalqa yalan satır. Hətta dünya çempionatında iştirak etməyən milli komandanın mundialın növbəti mərhələsinə adlamasından on dəfə böyük yalanlar da uydurulur və xalqa sırınır. Sadəcə, bu yalanlar sübutu başının üstündə olan yalanlar deyil, araşdırma, ifşa tələb edir.

Ona qalsa, SSRİ dövründə biz məhz o cür yalanların içində qaynayırdıq. "Çürüməkdə olan mənfur kapitalizm dünyası", "1 milyon ton pambıq istehsalı", "3 milyon ton üzüm əldə edilmişdir", "ABŞ-dakı kütləvi işsizlik", "sovet xalqının yüksək rifahı" və sair və ilaxır.

O vaxtlar kənar dünya ilə sovet xalqının dünyası arasında dəmir sədlər vardı. Ölkədən kənarda baş verənlər, real vəziyyət barədə informasiyalar beşqat süzgəcdən keçirilirdi. Çox nadir hallarda olurdu ki, dünyanın ən nəhəng ölkəsinin vətəndaşları hansısa həqiqətdən Moskvanın, Kremlin iradəsindən kənar xəbər tutsunlar. Məsələn, Danimarkada küçələrin şampunla yuyulması xəbərini ilk dəfə televiziyada səsləndirən xalq artistinin həmin sözündən sonra Azərbaycan əhalisi çox heyrətlənmişdi. Çünki ölkədə şampun qıt idi, üstəlik, rəsmi təbliğat israrla bildirirdi ki, Qərb dünyası acından ölür, bitin-sirkənin içindədir. Heç demə, onlar küçələri şampunla yuyurmuşlar...

Totalitarizmin, avtoritarizmin mahiyyəti budur. O, xalqı kölə vəziyyətinə salıb idarə etmək üçün kənardakı bütün yaxşı örnəklər barədə məlumatların yayılmasını boğacaq, ya da qaralayacaq. Başqa ölkələrdə vəziyyət dözülməzdir, aclıqdır, səfalətdir, yalnız bizdə insanların çörək tapır, siyasi sabitlik hökm sürür, ona görə də bu gününüzə şükür edin, başqa niyyətlərə düşməyin - rəsmi təbliğatın aşılmaq istədiyi başlıca qənaət budur. AzTV illərdir bu yöndə çalışır və diqqət yetirmir ki, hər gün minlərlə insan xarici ölkələrə gedib-gəlir və gördüklərini sosial və peşəkar mediada yayır.

Amma elmi-siyasi mərkəzlər araşdırmalıdır: ŞKXDR-də milli yığmanın mundialın səkkiz güclü komandasından biri elan edilməsi nəyə lazım imiş.

# Əhəd Abıyev oğlunun "intihar" xəbərindən danışdı

## "Uşaq dəniz kənarında istirahətdədir"

**"Yazırlar ki, oğlum 9-cu mərtəbədən yıxılıb, xoşbəxtlikdən yüngül xəsarət alıb. Bu xəbərə yalnız gülmək olar". Bu sözləri musavat.com-a Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev deyib.**



Əhəd Abıyev

O, bildirib ki, oğlunun intihar etməsi haqda məlumat yalandır: "Gəlsinlər görsünlər, oğlumun bədənində bir cızıq, sıyrıq varmı? Ayıbdır, utansınlar. Uşaq dəniz kənarında istirahətdədir".

Yayılan xəbərlərə cavab olaraq, Ə.Abıyev oğlu ilə birgə Zağulbada istirahət etdiyini dedi: "Telefonu verirəm İslama, özünüz onunla danışın".

Əhəd Abıyevin oğlu **İslam Abıyev** isə musavat.com-a bildirdi ki, barəsində yayılan məlumatlar iftiradır və inanmayan mətbuat nümayəndələri gəlib, onunla görüşə bilərlər: "Zağulbadayam, atamın yanındayam. Kim istəsə, gəlib mənimlə görüşə bilər. Bədənimdə heç bir xəsarət yoxdur. Yıxılan adamın bədənində xəsarəti olar, başı yarılar. 9-cu mərtəbədən yıxılana heç nə olmaz?"

İ.Abıyev onu görmək istəyənləri Zağulbadakı çimərliyə dəvət etdi.

Qeyd edək ki, yayılan məlumatda Ə.Abıyevin 17 yaşlı oğlunun Türkiyədən oteldə 9-cu mərtəbədən yıxıldığı iddia edilirdi.

Xəbərdə bildirilirdi ki, oğlu Ə.Abıyevlə mübahisə edəndən sonra özünü 9-cu mərtəbədən atıb, intihara cəhd edib.

# Bakıda üç idmançının silahlı "razborka"sının təfərrüatları

## İki qardaşı qanına qəltan edən şəxs polis tərəfindən saxlanılıb

**Bakının Binəqədi rayonunda baş verən cinayətin təfərrüatları məlum olub. Binəqədi Rayon Polis İdarəsindən ANS PRESS-ə verilən məlumata görə, iyulun 12-də, gecə saat 04:00-da Biləcəri qəsəbəsi, "Meydan" kimi məşhur olan ərazidə boks idmanı ilə məşğul olan şəxslər arasında dava ölümlə nəticələnib.**

Belə ki, 1978-ci il təvəllüdlü Samur Həsənov mübahisə nəticəsində 1981-ci il təvəllüdlü Fərid Həsənov və onun qardaşı 1977-ci il təvəllüdlü Şəhriyar Həsənovu vurub. Samur Həsənov əvvəlcə Fərid Həsənovu boynundan tapança ilə güllələyib. Daha sonra qardaşı Şəhriyar Həsənovu qarnından bıçaqlayıb.

Güllələnən qardaş hadisə yerində keçinib. Şəhriyar Həsənov isə ağır vəziyyətdə xəstəxanaya çatdırılıb.

Hadisə yerinə hüquq-mühafizə orqanları əməkdaşları cəlb olunub. Polisin keçirdiyi əməliyyat nəticəsində hadisəni törədən Samur Həsənov tutulub.

Qeyd edək ki, hər üç hadisə iştirakçısı boksla məşğul olurmuş. Onlar Biləcəri meydanındakı idman zalında məşq edirmişlər. Deyilənlərə görə, qardaşlarla Samur Həsənov arasında həmişə narazılıq olub. Sonradan ortada söyüş söyüldüyü üçün münasibətlər daha da kəskinləşib. Onlar münasibətlərinə aydınlıq gətirmək üçün gecə saatlarında görüşüblər. Tərəflər yenə də ortaq məxrəcə gələ bilməyiblər. Bu səbəbdən əlbəyaxa dava düşüb. Dava zamanı Samur Həsənov gəzdirdiyi silahdan istifadə edib.

# Hüquq müdafiəçisi məhkəmə zalında həbs edildi

## "Kamil Vətəndaş" Mərkəzinin rəhbəri Həsən Hüseynliyə 6 il cəza kəsildi; "Mən bu işdə günah etmiş hər bir kəsi tövbəyə çağırıram"

**"Kamil Vətəndaş" Maarifləndirmə Mərkəzinin rəhbəri Həsən Hüseynlinin işi üzrə Gəncənin Nizami Rayon Məhkəməsində keçirilən məhkəmə prosesi iyulun 14-də yekunlaşıb. "Mediaforum" saytı xəbər verir ki, Həsən Hüseynli son sözündə vurğulayıb ki, Gəncə Şəhər Baş Polis İdarəsinin müstəntiqi Füzuli Şıxıyev bir böhtançının iftirası və iki yalançı şahidin ifadələri üzərində qurduğu və apardığı qondarma cinayət işinin gedişində heç bir fakt ortaya qoya bilməyib.**



Daha sonra Həsən Hüseynli qeyd edib ki, iş prokurorluğa göndəriləndə Gəncə şəhər prokuroru Adil Vəliyevin qondarma ittihama xitam verəcəyini, işi məhkəməyə göndərməyəcəyini gözləyib: "Amma yenə də təəssüflə deməliyəm ki, şəhər prokuroru da bu işə səhlənkar yanaşdı və primitiv şəkildə qondarılmış bu cinayət işinin məsuliyyətini bölüşərək onu baxılmaq üçün Gəncə Şəhər Nizami Rayon Məhkəməsinə göndərdi".

**Son sözündə Həsən Hüseynli ədalətli qərara hələ də ümidini itirmədiyini, məhkəmədən, hakim Ayaz Mahmudovdan ədalət gözlədiyini diqqətə çatdırıb:** "Özümü bu qondarma cinayətdə təqsirli bilmirəm və bəraət hökmü gözləyirəm. İndi Ramazan ayıdır. Özünü müsəlman bilən hər kəsin heç olmasa bu aylarda etdiyi günahlar barədə düşünməsi və yeni günahlar etməməsi vacibdir. Bizim dinimizdə və yəqin ki, bütün dinlərdə böhtan insanın edə biləcəyi günahların ən ağırı sayılır. Bu qondarma cinayət işi də başdan-başa böhtan üzərində qurulub. Mən bu işdə günah etmiş hər bir kəsi, nə qədər ki, gec deyil, tövbə edərək bu günahdan xilas olmağa çağırıram. Allah böyükdür, tövbə edən hər bir kəsin günahlarını bağışlayar".

Son sözündə Həsən Hüseynli bu aylar ərzində onun hüquqlarını müdafiə etmiş insanlara, o cümlədən vəkillərinə, öz ailə üzvlərinə, dostlarına, tələbələrinə, jurnalistlərə, hüquq müdafiəçilərinə, beynəlxalq təşkilatlara və Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun bir sıra nümayəndələrinə minnətdarlığını bildirib.

Məhkəmənin hökmü isə ağır olub. Həsən Hüseynli 6 il müddətinə azadlıqdan məhrum edilib və məhkəmə zalında həbs olunub.

Həsən Hüseynli silah tətbiq etməklə xuliqanlıq və qanunsuz olaraq soyuq silah gəzdirmə ittihamı ilə həbs edilib. İstintaqın iddiasına görə, QHT rəhbəri bu il martın 31-də Gəncə sakini Arzu Qəhrəmanovu bıçaqla yaralayıb.

Həsən Hüseynli 1957-ci ildə Gəncə şəhərində doğulub. 1978-ci ildə indiki Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirib.

1990-1992-ci illərdə həmçinin jurnalist kimi fəaliyyət göstərib, Gəncədə çıxan "Vətən" qəzetində çalışıb. 1992-1993-cü illərdə Azərbaycan Respublikası Prezidenti Aparatında baş məsləhətçi olub.

1997-1998-ci illərdə Bakıda Açıq Cəmiyyət İnstitutu Yardım Fondu - Soros Fondunda çalışıb, təhsil proqramına koordinatorluq edib. 1998-2004-cü illərdə Gəncə Təhsil Məlumat Mərkəzinin rəhbəri olub. 2004-2009-cu illərdə Gəncə Açıq Cəmiyyət Təşəbbüsləri Mərkəzinə rəhbərlik edib.

2009-cu ildən Gəncədə fəaliyyət göstərən "Kamil Vətəndaş" Maarifləndirmə Mərkəzi İctimai Birliyinin rəhbəridir.

Fizika üzrə elmi məqalələrin, təhsil problemləri haqda yazıların və 2 kitabın müəllifidir.

**Ailəlidir, iki övladı var.**

YENİ MÜSAVAT
N 179 (5888) 15 iyul 2014

# İqbal Ağazadə BJF-nin nümayəndələri ilə görüşüb

## Ümid Partiyasının sədri medianın inkişafına dəstək verdiyini dedi



**Ümid Partiyasının mərkəzi qərargahında Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Beynəlxalq Jurnalistlər Federasiyasının baş katibinin müavini Oliver Krly və nümayəndə heyətini qəbul edib. Qonaqlar təşkilatın fəaliyyəti, gördüyü işlər və Azərbaycana gəlişlərinin səbəbini açıqlayıblar.**

Qeyd olunub ki, Beynəlxalq Jurnalistlər Federasiyası dünyanın 170-dən çox ölkəsində özünün bölmələrini yaradıb. Bütün dünyada jurnalist həmkarlar ittifaqları ilə əməkdaşlıq edir. Jurnalistlərin təhlükəsizliyinin qorunması və iş şəraitinin yaxşılaşdırılması, əmək hüquqlarının qorunması istiqamətində fəaliyyət göstərir.

Azərbaycanda olduqları müddətdə də bir sıra QHT, qəzet redaktorları, mətbuatla işləyən hökumət qurumları və parlament nümayəndələri ilə görüşərək Azərbaycanda medianın durumu ilə yaxından maraqlanıblar.

“Ölkənin daxilində jurnalistlər üçün oturuşmuş media institutları və iş yerləri olmalıdır. Bizim belə bir şüarımız var ki, korrupsiyaya uğramış ölkələrdə azad media ola bilməz. Həmçinin jurnalistlərin işlədiyi müəssisələrdə onların iş şərtlərini əks etdirən müqavilə olmalıdır” deyə, O.Krly bildirib.

**O.Krly deyib ki, hər hansı bir ölkədə azad, professional jurnalist hərəkatının yaradılması üçün yaxşı media qanunlarının olması vacibdir:** "BJF-nin əsas məqsədi jurnalistlərin təhlükəsizliyinin qorunması və onların əmək haqlarının təmin edilməsidir. Biz buna jurnalistlərin həmrəyliyi və BJF-nin təşkilatlanması yolu ilə nail oluruq. BJF üzvlərsiz heç nəyə nail ola bilməz. Buna görə də hər bir ölkəyə güclü və oturuşmuş jurnalist həmkarlar təşkilatı lazımdır. Bu məhz jurnalistlərin fəaliyyətindən asılıdır və onlar bunu güclü edə bilər".

Bundan əvvəl də Azərbaycanda “Etik peşə qaydaları” adlı layihə həyata keçirdiklərini qeyd edən qonaqlar, jurnalist həmkarlar ittifaqının gücləndirilməsi, yoxsa yaradılması istiqamətində 3 illik layihənin icra olunması üçün Azərbaycanda olduqlarını bildirdilər.

Əlavə olaraq qeyd olundu ki, demokratiyaya nail olmaq üçün güclü medianın olması vacibdir. Sağlam medianın gücləndirilməsi üçün isə güclü həmkarlar ittifaqı lazımdır. Bunun üçün media ilə münasibətləri yaxşı olan, medianın inkişafını istəyən və dəstək verən millət vəkillərindən ibarət parlamentdə bir qrupun yaradılmasına, onların dəstəyinə, lazım gələrsə, jurnalistlərin problemlərinin parlament səviyyəsində qaldırılmasına ehtiyac var. Bu səbəbdən millət vəkili İqbal Ağazadənin yanındadırlar və ondan bu istiqamətdə köməklik etməsini istəyirlər.

Ümid Partiyasının sədri İqbal Ağazadə də mətbuata hər zaman açıq olduğunu, medianın inkişafına dəstək verdiyini, jurnalistlərin problemlərini parlamentdə qaldırdığını, “Diffamasiya haqqında” Qanunun qəbuluna çalışdığını, BJF-yə təşəbbüs göstərilən istiqamətdə bütün köməklikləri göstərməyə hazır olduğunu bildirdi. Azərbaycan mediasının və jurnalistlərin real vəziyyətindən və çətinliklərindən danışdı. Layihənin icrasına effektli başlamaq üçün bəzi təkliflər verdi.

BJF nümayəndələri sonda səmimi görüş üçün millət vəkili İqbal Ağazadəyə təşəkkürlərini bildirdilər.

Qeyd edək ki, BJF-nin həyata keçirəcəyi layihə 3 illik layihədir. Yardım Avropa Komissiyasından gəlir və təkcə Azərbaycanda deyil, Ermənistan və Gürcüstanda da həyata keçiriləcək.















# Bıçaq idmanı

Zamin HACI
zaminhaci@gmail.com

**Başqa mövzular hələlik ölsün yerində, ən aktual mövzu Gürcüstana keçirilən 3 tona yaxın heroinin Azərbaycanda necə peyda olmasıdır. Dövlət qurumlarımız səslərini müəyyən yerlərində boğub bu mövzuya izahat vermədikləri üçün xalqımız özü araşdırmaları davam etdirir. Yeni təfərrüatlar ortaya çıxmaqdadır.**

Məsələn, məlum olub ki, narkotik AXC-Müsavat dövründə Gürcüstana keçirilirmiş, sadəcə, əməliyyat 21 il çəkib, yalnız bugünlərdə bitmək üzrəymiş ki, gürcü polisləri cinayətin üstünü açıblar. Yoxsa yapistlər hara, narkotik hara... Hamısı həccə getmiş, məscid tikdirən imanlı insanlardır. Bunlar hallanan yox, halal tiplərdir.

İkinci təfərrüat Sədərək gömrüyünün ağır seyid şefi Mirməhəmməd Seyidov yoldaşın həyat və yaradıcılığı ilə sıx surətdə bağlıdır. *(Cəddi köməyimiz olsun, ilahi, amin!).* Deməк, bildiyiniz kimi, Türkiyə polisi Mirməhəmməd müəllimi tutub aparmışdı, uzun müddət qazamatda saxlamışdı. Deyirdlər gömrük şefi insan alveri, qaçaqmalçılıq və sairə bu tipli əməllər törədən beynəlxalq kriminal dəstə ilə əlbir imiş. O vaxt dəstənin rabitə vasitələrində gizli danışıqlarının gülməli mətni də yayılmışdı, sən demə yoldaş Seyidov sərhəddən nəyisə qanunsuz keçirdəndə Türkiyə tərəfindən istədiyi rüşvəti ratsiyada bu cür xəbər verirmiş: "Bir az qarın ağrısı dərmanı lazımdır, göndərin". Dolları qarnına yapışdıran kimi ağrı kəsirmiş. Ümumiyyətlə, bu, Azərbaycan səhiyyəsinin unikal metodlarından biridir, texniki baxımdan çalışmaq lazımdır yüzlüyü qarına yapışdıranda Franklinin ağzı hardasa göbək nahiyəsinə düşsün.

Uzun sözün qısası, türk qardaşlarımız gömrükçümüzü antiqardaşcasına tutub aparmışdılar. Sonra dedilər buraxılıb, açığı, bu haqda da dəqiq bir məlumat yoxdur. Bəlkə heç buraxılmayıb. Azərbaycan dövlətçilik sisteminə nə var, bir də gördün açıqlama verdilər ki, siz nədən danışırsınız, Seyidov Sədərək gömrüyünün rəisi olmayıbdır, ümumiyyətlə Sədərəkdə gömrük yoxdur. Məcbursan inanasan. İnanmayanları tuturlar axı. Elə dünən axırıncı inamsızlardan birinə - Gəncə hüquq müdafiəçisi Həsən bəyə 6 il həbs cəzası verdilər.

Sözümün canı odur ki, Mirməhəmməd bəy Öcalanla bir kamerada saxlanıldığı günlərdə gömrüyümüz yiyəsiz qalmışdı. Bax, Gürcüstana 3 ton heroin də elə o anda keçirilib! Vəssalam! Söhbət bu qədər sadədir! Günah Ərdoğandadır. Sədərək gömrüyünün Gürcüstanla sərhədinin olmaması isə məsələnin mahiyyətini qəti dəyişdirmir. Üç rəngli bayrağınla məsud yaşa!

Sevindirici haldır ki, dövlətçiliyimizin heroin suvağı ilə möhkəmləndiyi bugünlərdə deputat Adil Əliyevin Türkiyədən xoş sorağı gəlir. Bəy orda Ağrı dağına çıxıbdır. Bu, bizim deputatlarda alpinizm yanğısının ilk təzahürü deyildir, onların əsasən 2 fəaliyyət sahəsi var: qanun qayırmaq və dağa dırmaşmaq. Üzvi əlaqəli sahələrdir, çünki o cür deputatxana fəaliyyətinin enində-sonunda hamısı dağa qaçmalı olacaqdır. İndidən öyrənirlər.

Başqa üzvi əlaqəli sahələrimiz isə idman və kriminaldır. Azərbaycanda idmançının cinayət törətməsi, yaxud cinayətkarın idmançı olması hətta fəlsəfi dartışılır - hansı birincidir kontekstində. Yenə bugünlərdə peşəkar boksçularımız dalaşıblar, 1 ölü, 2 yaralı vardır. Ancaq maraqlıdır, qətl yumruq zərbəsi ilə deyil, bıçaq və tapança davası zamanı olub. Rəhmətliyin uşağı, daha o idmanı nə üçün edirsiniz? Əgər axırda gücünüzü yenə tüfəng-bıçaq ölçəcəksə, başınıza dəysin o idman zalı, o məşqlər... Bıçaqlaşma idmanı da yoxdur ki, deyək bu üzrə bəlkə bir qələt eləyəcəklər. Birinci hadisə deyil, idmançılarımızın bıçaqlaşması çox rast gəlinmişdir.

Fəxr edirəm ki, azərbaycanlıyam.



# Ermənistan Rusiyanı şantaj etməyə çalışır

## Amma işğalçı ölkə kritik anda yenə də Kremlin köməyinə ümid bəsləyir...

**Ermənistan ictimai-siyasi fikrində Rusiyaya münasibətdə indiyədək özünü heç vaxt bunca büruzə verməmiş bir məyusluq və etimadsızlıq sindromu yaşanmaqdadır. Rəsmi səviyyədə bu ovqat Kremlin qorxusundan özünü çox qabarıq göstərməsə də, digər səviyyələrdə, mediada, ekspert dairələrində o, aydınca sezilir.**

Rusiyaya münasibətdə bədbinlik bir neçə aspektdə bariz şəkildə görünməkdədir. Biri odur ki, ermənilərin Krım məsələsindəki kimi, Dağlıq Qarabağ probleminin həllində də Rusiyanın öz müqəddəratını təyinetmə hüququnu ərazi bütövlüyü prinsipindən üstün tutacağına və ermənilərə daha yaxın mövqe sərgiləyəcəyinə bağlanan ümidlər doğrulmadı. Moskva Qarabağ məsələsində İrəvana yönəlik heç bir ciddi reverans eləmədi və açıq işarə vurdu ki, "bu xəmir o xəmirdən deyil".

İkincisi, Krım olayları fonunda da Moskva Azərbaycana hərbi texnika satışını dayandırmadı və bununla regionda Ermənistanın maraqlarının ondan ötrü xeyli arxa planda olduğunu növbəti dəfə nümayiş etdirmiş oldu. Ermənilərə yenə öz yağlarında qovrulmaqdan savayı bir nəsnə qalmadı.

Erməni toplumuna üçüncü məyusluq zərbəsi Avrasiya Birliyi məsələsində dəydi. Bəlli oldu ki, Rusiya üçün regionda Azərbaycan gerçəkdən də "müttəfiq" Ermənistandan daha vacib və strateji ölkədir və əslində Azərbaycansız Ermənistan Rusiyaya lazım deyil. Ermənistanın quruma üzvlüyünün ertələnməsini də bir çox təhlilçilər, o sırada erməni ekspertləri haqlı olaraq Azərbaycanın yeni quruma daxil olmaqdan imtinası ilə əlaqələndirdilər.

Maraqlıdır ki, Bakı bu imtina ilə əslində Ermənistanın da geridönməz şəkildə Rusiya boyunduruğuna girməsini müvəqqəti olaraq əngəllədi ki, bu da perspektiv planda rəsmi İrəvanın manevr imkanlarını artıra, Qarabağ məsələsində ona daha müstəqil hərəkət imkanı qazandıra, deməк, Qərbin də istəklərinə cavab verə bilər. Bu mənada Azərbaycan bölgədə Rusiya və Qərbdən ötrü həqiqətən açar ölkə olduğunu nümayiş etdirdi ki, erməni analitikləri bunu da etiraf eləməkdədirlər.

Görünən həmçinin odur ki, MDB məkanında gedən son proseslər Ermənistanın təhlükəsizliyini möhkəmlətməyib. Əksinə, Moskva işğalçı ölkə istədiyi şəkildə davranmaq tövrü sərgilədiyindən, erməni tərəfdə xof güclənib ki, Rusiya nə vaxtsa işğalçı ölkəni birtərəfli qaydada bazarlığa çıxara bilər.

Məsələn, "Öz müqəddəratını təyinetmə" birliyinin rəhbəri Paruyr Ayrikyana görə, "Rusiya özünün siyasi maraqları naminə müttəfiqlərini qurban verməyə hər an hazır olduğunu dəfələrlə nümayiş etdirib". Deməli, günün birində növbənin Ermənistana çatacağı istisna deyil.

Belə bir bədbin ovqatın dominant təşkil eləməsinin təzahürüdür ki, bugünlərdə İrəvan küçələrində keçirilən sorğuda rəyi soruşulanların əksəriyyəti "Ermənistan öz təhlükəsizliyini təmin eləməkdə yalnız özünə güvənməlidir, nəinki strateji müttəfiq hesab edilən Rusiyaya" fikrini səsləndirib. Onların bəzilərinin qənaətincə, Ermənistan Rusiyanın təhlükəsizlik zəmanətinin qarşılığında sonuncuya çox böyük güzəştlər edir.

Əlbəttə ki, iqtisadi sferası da tamamən Rusiyanın nəzarətində olan, iş qabiliyyətli əhalisinin yarıdan çoxu məhz Rusiyaya köç eləmiş cırtdan ölkənin Azərbaycan və Türkiyənin əhatəsində öz təhlükəsizliyini təkbaşına necə təmin edəcəyi, üstəlik, Azərbaycan torpaqlarını necə nəzarətdə saxlamaqda davam edəcəyi çox maraqlıdır. Daha doğrusu, irrealdır. Bunu kim başa düşməsə də erməni siyasi isteblişmenti gözəl anlayır. Odur ki, giley-güzarla yanaşı, ümidlər yenə də Moskvaya ünvanlıdır.

Təhlükəsizlik dilemmasının diktə elədiyi belə təzadlı ovqat, Ermənistan prezidenti Serj Sərkisyanın Latın Amerikası ölkələrinə səfəri çərçivəsində Argentinanın "La Nacion" nəşrinə verdiyi müsahibədən də aydınca göründü. Qarabağ zonasında yeni müharibəni istisna eləməyən düşmən ölkənin başçısı strateji müttəfiqi Rusiyanın bostanına daş ataraq dedi: **"Bizim xalqımız belə bir faktdan çox üzülür ki, strateji müttəfiqimiz Azərbaycana silah satır. Ancaq baxmayaraq ki, Rusiya Bakıya silahlar və hərbi texnika satır, şübhə eləmirəm ki, bizim çətin dəqiqələrimizdə Moskva öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcək".**

Yəni ermənilər həm məyusdular, öz daxillərində narazı şəkildə qımıldanırlar, həm də yalnız Rusiyaya bel bağlamaqdan başqa yollarının qalmadığını etiraf edirlər. Halbuki Rusiyanın Ermənistanla quru sərhədi yoxdur. Hətta bu da önəmli deyil. Odur ki, dünya okeanına çıxışı olmayan bu balaca ölkə öz milli və dövlət təhlükəsizliyini bölgənin hərbiləşdirilməsi və müharibə riskləri hesabına deyil, qat-qat az məsrəflə və asanca qonşu Türkiyə və Azərbaycanın hesabına da təmin edə, qısa zamanda iqtisadi rifaha qovuşa bilərdi. Bircə şərtlə - işğal siyasətindən imtina edib qonşu ölkələrin ərazi bütövlüyünü tanısın. Buna ki, Rusiya mane olmur.

❑ Z.SƏFƏROĞLU

# Türkmənistan "yeni SSRİ"yə daxil olmaqdan imtina etdi

## "Avrasiya İttifaqına üzvlük bizim gündəliyimizə daxil deyil"



**"Türkmənistan Rusiyanı özünün strateji partnyoru hesab edir. Amma bizim ölkə Avrasiya İttifaqına girməkdə maraqlı deyil". Modern.az rus KİV-nə istinadən xəbər verir ki, bunu Türkmənistanın Rusiyadakı səfiri Berdımurat Rəcəbov ölkəsinin Avrasiya İqtisadi Birliyinə üzvlüyü məsələsini şərh edərkən deyib.**

O bildirib ki, Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədov rəsmi Aşqabadın xarici ölkələrdəki səfirləri ilə görüşündə Avrasiya İttifaqı ilə bağlı məsələlərdən söz açıb. Səfirin sözlərinə görə, Türkmənistan dövlət başçısı Rusiyanı strateji partnyor hesab edir.

"Prezident bizimlə keçirdiyi müşavirədə Rusiya ilə əməkdaşlığın strateji xarakter daşıdığını bəyan etdi. Bu gün siyasi planda Türkmənistan və Rusiya BMT-də bir-birini dəstəkləyir. Avrasiya İttifaqı məsələsində isə Türkmənistan bitərəf xarici siyasətinə uyğun hərəkət edəcək. Biz ikitərəfli münasibətlərin inkişafında maraqlıyıq. Lakin Avrasiya İttifaqına üzvlük bizim gündəliyimizə daxil deyil", - deyə türkmən səfir bildirib.

Qeyd edək ki, may ayının 29-da Astanada Rusiya, Qazaxıstan, Belarus prezidentləri Avrasiya İqtisadi İttifaqının yaradılması haqqında sənədi imzalayıblar.

Bəzi siyasi şərhçilərin "Yeni SSRİ" kimi xarakterizə etdiyi Avrasiya Birliyinin 2015-ci ilin ilk aylarından fəaliyyətə başlayacağı

# Türkiyəyə daşınan narkotiklə Azərbaycanın məşhur şirkətinin mübhəm əlaqəsi

**Gürcüstan Daxili İşlər Nazirliyinin iyulun 11-də keçirdiyi antinarkotik əməliyyatını mübaliğəsiz olaraq son illərin ən parlaq və səs-küylü əməliyyatı adlandırmaq mümkündür. Dünən Gürcüstanın baş naziri İrakli Qaribaşvili hökumətin iclasında Azərbaycanla sərhəddə tutulan 3 ton təmiz heroinə görə DİN-i təbrik edib. Gürcü baş nazir bu əməliyyata görə ölkəsinin Daxili İşlər Nazirliyini alqışlayıb, qurumun rəhbərini nəzərdə tutaraq deyib:**



# Gürcüstanda tutulan 3 ton heroinlə bağlı yeni şok təfərrüatlar

## Saflaşdırılmış heroini "FAB" boyasının qablarında, bu şirkətin reklamı olan maşında daşıyıblar; Gürcüstan hökuməti təcili toplaşıb məsələni müzakirə etdi; Azərbaycanın Dövlət Sərhəd Xidmətindən və Dövlət Komissiyasından "Yeni Müsavat"a heyrətamiz açıqlamalar

"Çikaidzenin nazirliyi böyük həcmdə narkotik ələ keçirib. Bu cür böyük miqdarda heroini indiyədək nəinki bizim ölkədə, heç qonşu ölkələrdə ələ keçirməmişdilər. Mən bu uğur münasibətilə sizi təbrik edirəm. Bu, bizim ölkənin narkotiklərə qarşı ciddi mübarizə aparmaq iradəsini bir daha əks etdirir".

Xəbər verildiyi kimi, iyulun 11-də Gürcüstan DİN Azərbaycandan keçib Türkiyəyə gedən yük maşınına baxış zamanı 2 ton 790 kiloqram təmiz heroin aşkar edib. Heroin saflaşdırılıb və maye halda olub.

O, 93 ədəd 30 litrlik maye sabun çəlləklərində qablaşdırılıb. Ekspertiza müəyyən edib ki, ələ keçirilmiş narkotik maddə 80 faiz saflaşdırılmış təmiz heroindən ibarətdir və bazar dəyəri yüz milyonlarla dollardır. İşlə bağlı iki Gürcüstan vətəndaşı saxlanılıb. "Turan" bildirir ki, narkotik maddə Azərbaycanın məşhur boya şirkəti "FAB"ın istehsalı olan boya adı altında qablaşdırılıb. Həmçinin narkotiki daşıyan yük maşınının üstündə "FAB" boyasının təsviri ilə böyük reklam yer alıb.

Azərbaycan tərəfi isə 3 ton təmiz heroinin ölkə ərazisindən keçib Gürcüstana necə daxil olduğuna şərh vermir. MTN-in ictimaiyyətlə əlaqələr şöbəsindən deyiblər ki, bu məsələ barədə Gömrük Xidmətinə, Sərhəd Xidmətinə müraciət etmək lazımdır. Öz növbəsində Gömrük Xidməti, DİN və Baş Prokurorluq da qalmaqalı şərh etməyib.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzinin rəhbəri Elxan Nağıyev məsələ ilə bağlı "Yeni Müsavat"ın əməkdaşının suallarını cavablandırıb. Deyib ki, Gürcüstan DİN-in keçirdiyi əməliyyat haqda məlumatlıdır: "Bizdə əlavə hansısa məlumat yoxdur. Elə bir şey də ola bilməz".

*- Yəni Gürcüstan DİN-in Azərbaycan ərazisindən keçirilən 2 ton 790 kiloqram narkotik tutması xəbəri düz deyil?*

- Yox. Yəni bizdə belə bir məlumat yoxdur.

*- Siz rəhbəri olduğunuz mətbuat xidmətini nəzərdə tutursuz, yoxsa ümumiyyətlə Dövlət Sərhəd Xidmətini?*

- Mətbuat xidmətində bu haqda məlumat yoxdur.

*- Sizin məsələ ilə bağlı dəqiqləşdirmə aparmaq imkanınız var?*

- Əgər elə bir şey varsa, bizim də məlumatımız olur. Yəni bizdə belə bir məlumat yoxdur.

*- Gürcüstan Daxili İşlər Nazirliyi rəsmi məlumatda belə yazır ki, Azərbaycan sərhədlərini aşan 2 ton 790 kiloqram heroin Gürcüstanda tutulub. Bundan sonra Dövlət Sərhəd Xidmətinin rəhbərliyi həmin avtomaşının keçdiyi sərhədlərimizdə xidmət aparan əməkdaşların fəaliyyətinin yoxlanılmasına qərar verib?*

- Sərhəddən keçə bilməz axı.

*- Bəs Gürcüstan DİN niyə rəsmi məlumatda belə yazır? Elə yazaydılar ki, həmin tonlarla heroin Azərbaycanın hava sərhədlərini pozmaqla və ya Dağlıq Qarabağdakı nəzarətsiz ərazilərdən keçirməklə Gürcüstana daşınıb.*

- Sərhəd haqda qanunlar, ölkələrarası müqavilələr var. Həmin yük, siz dediyiniz kimi, sərhəddən keçirilib və tutulub. Azərbaycanın müqaviləsi olduğu ölkələrlə belə bir razılaşması var ki, başqa bir ölkənin hər hansı bir yük maşında daşınan yüklər Azərbaycan Respublikasının ərazisindən tranzit olaraq ağzı bağlı və möhürlənmiş şəkildə keçib gedə bilər. Dövlət Sərhəd Xidmətinin əməkdaşları, sərhədçilər möhürü açıb maşınların yükünə baxa bilməzlər. Yüklərə baxış keçirir Dövlət Gömrük Komitəsi. Fikir verdinizsə, Gürcüstan Daxili İşlər Nazirliyi rəsmi məlumatda yazır ki, yük sərhəddən yox, sərhəd nəzarət məntəqəsindən keçib və içindən həmin narkotik çıxıb. Azərbaycan sərhədçisi ölkədən tranzit olaraq keçən və yaxud sərhəddən möhürlü olaraq keçən avtomaşının möhürünü açıb onun içini yoxlamaq səlahiyyətinə malik deyil. Həmin yükün möhürünü yalnız hansı ölkədə açılmalıdırsa, həmin ölkənin nümayəndəsi aça bilər. Yəni yükün təyinat ölkəsində açılmalıdır. Amma bu o demək deyil Azərbaycan ərazisindən narkotik keçib gedib Gürcüstana. Gün ərzində Azərbaycan ərazisindən minlərlə elə TİR (ağır tonnajlı yük maşını-E.M) keçir və daşıdıqları yük möhürlü olur. Məsələn, İrandan yüklər Azərbaycandan keçməklə Rusiyaya, Ukraynaya və digər ölkələrə gedir. Ölkəyə yük necə möhürlü daxil olursa, elə də çıxır. Sərhədçi başqa ölkələrə məxsus yüklərə baxış keçirə bilməz axı.

*- Dövlət Sərhəd Xidmətinin sərəncamında ölkə ərazisindən daşınan yüklərə nəzarət etmək üçün, onların tərkibini müəyyən etmək üçün vasitələr var. Narkotiki qapalı yerlərdə müəyyən edən xüsusi öyrədilmiş itlər, rentgen aparatları da sərhədçilərin sərəncamındadır. Belə olduğu halda həmin yük sərhədçilərin diqqətindən necə yayına bilərdi?*

- İtlər də, rentgen aparatları da var. Amma siz nəzərdə tutun ki, 3 ton narkotik keçirənlər bütün bunları yəqin ki, nəzərə alıb. Həmin adam yəqin ki, küçədən keçən adam deyil. Bu dəqiqə bu məsələnin üzərində araşdırma aparılır. Yenə də deyirəm, sərhəddən keçid olmur, gömrükdən keçid olur. Yəni həmin yük gömrük postundan keçib. Orada sərhədçinin işi həmin o rentgen aparatını-filanı istifadə etmək deyil. Sərhədçi dövlət sərhədini mühafizə edir.

Məsələ ilə bağlı Dövlət Gömrük Komitəsinin mətbuat xidmətinə israrlı zənglərimiz cavabsız qaldı.



Fəqan Şahverdiyev: "Sırf Dövlət Sərhəd Xidmətinə, xüsusilə Dövlət Gömrük Komitəsinə müraciət olunmalıdır"

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına da sorğu ilə müraciət etdik. Bu quruma müraciətimiz təsadüfi deyil. Qurumun əsasnaməsinin 2.1-ci bəndində yazılıb: "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının əsas vəzifələri narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının dövlət siyasətinin həyata keçirilməsini təmin etməkdən, bu sahədə dövlət orqanlarının və ictimai birliklərin fəaliyyətini əlaqələndirməkdən ibarətdir.

*- Başlıca məqsədi bu sahədə dövlət siyasətini həyata keçirməli olan qurum rəsmiləri nin baş vermiş məsələyə münasibəti necədir?*

- Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupuna ötən ayın 2-də sədr əvəzi, 30-da isə sədr təyin olunan Fəqan Şahverdiyev deyib ki, Azərbaycan ərazisindən 3 ton heroin daşınması haqda mətbuat vasitəsi ilə xəbər tutublar: "Məsələ haqda məlumatımız mətbuatda yazılanlar qədərdir. Yaxşı olardı ki, bu məsələ ilə bağlı aidiyyəti hüquq-mühafizə orqanlarına müraciət edəsiniz. Bununla bağlı əlimizdə geniş məlumat yoxdur ki, sizinlə bölüşək".

*- Konkret olaraq hansı quruma müraciət edək?*

- Hüquq mühafizə orqanlarına, sırf Dövlət Sərhəd Xidmətinə, xüsusilə Dövlət Gömrük Komitəsinə müraciət olunmalıdır.

*- Yayılan məlumatlardan bəlli olur ki, həmin narkotik daşıyan maşın İran ərazisindən sərhədi keçib Azərbaycan ərazisinə daxil olub və ölkəmizin Gürcüstanla olan sərhədini keçməklə...*

- Bizdə olan məlumat sizdə olan qədərdir, dedim axı! Saytınızdakı və başqa saytlardakı məlumatla tanışıq, bundan başqa məlumatımız yoxdur.

*- Ümumiyyətlə, Dövlət Komissiyasının rəhbəri olduğunuz işçi qrupunun funksiyası, fəaliyyəti nədən ibarətdir?*

- Dövlət Komissiyasının işçi qrupu cənab prezidentin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı təsdiqlədiyi proqramdan irəli gələn qurumlararası əlaqələndirmə, statistik məlumatların toplanılması və rəhbərliyə məruzə olunması, dövlət proqramının icrasına nəzarət edir.

*- 2 ton 790 kiloqram heroinlə yüklənmiş avtomaşın Azərbaycanın bir sərhədindən daxil olur, o biri sərhədindən başqa ölkəyə gedir. Necə hesab edirsiniz, bu, nəzarətsizliyin göstəricisidir, yoxsa?*

- Mən şərh verə bilmərəm. Fakt təsdiqini taparsa nəsə demək olar.

*- Gürcüstan Daxili İşlər Nazirliyinin bu haqda rəsmi məlumatı var. Orada yazılanlar yalandır?*

- Demirəm ki, o məlumat yalandır. O məlumatdan məlumatın var, yoxdur, bunu da demirəm. Ancaq o məlumat haqda məlumatımız yoxdur.

*- Dövlət komissiyasının işçi qrupuna yad şəxslərin daxil edilməsi haqda məlumatlar var. Razısız bu fikirlə?*

- Mən 4 ildir ki, işçi qrupunda işləyirəm.

*- Buna qədər harada çalışmısınız?*

- Qaradağ Rayon İcra Hakimiyyətində hüquq şöbəsində çalışmışam. 2010-cu ildən burada işləyirəm. Kim qərar verir ki, komissiyada yad şəxslər çalışır?

*- Boşluq olması belə fikirlərin, qənaətlərin ortaya çıxmasına səbəb olur.*

- İşçi qrupunda boşluq yoxdur. Tam olaraq narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət siyasətinə nəzarət olunur. Bu sahədə sayca 4-cü dövlət proqramı uğurla icra olunur.

*- Belə məlumatlar da var ki, Dövlət Komissiyası ölkədə narkotiklərin qanunsuz dövriyyəsi haqda hər 3 aydan bir olmaqla ildə 4 dəfə prezidentə hesabat verməlidir. Amma bu hesabatlar ildə 1 dəfə, özü də yarımçıq təqdim olunur.*

- Dövlət Komissiyasının saytı var və orada yeni məlumatlar yerləşdirilir.

*- Narkotiklərlə mübarizə aparmalı olan qurumlara Dövlət Komissiyasının nəzarət məsələsinə bir də qayıdaq.*

- Dedim axı, aidiyyəti qurumlara müraciət edin.

*- Deyirsiniz ki...*

- Nahar zamanıdır, çıxırdım, sizə dedim ki, nə yeni məlumatlar var, bizim saytda olur.

*- Gürcüstana Azərbaycandan keçirilməklə 2 ton 790 kiloqram narkotikin daşınması haqda saytınızda məlumat yerləşdirmisiniz?*

- Yox. Əlimizdə tam, dolğun məlumat olandan sonra yerləşdirərik.

*- Gürcüstan DİN əməliyyatı iyulun 11-də keçirib və həmin gün də rəsmi məlumat yayıb. Bu məlumatı alandan sonra Azərbaycan tərəfi hansı tədbir görüb?*

- Dedim axı, aidiyyəti üzrə hüquq-mühafizə orqanlarına müraciət edin.

*- Bu sahədə dövlət siyasətinin icra olunmasına nəzarət edən qurum kimi sizdə hər hansı bir hərəkətlilik olmayıbmı?*

- Bu məsələdən irəli gələn məsələlərlə bağlı aidiyyəti üzrə göstərişlər olur, o göstərişlər də icra olunur. Tam olaraq sizə məlumat verə bilmərəm.

*- Dövlət Komissiyasının sədri Əli Həsənov bu yazınlarda...*

- Cənab sədrə müraciət edin, açıqlama vermək onun səlahiyyətindədir.

**"Yeni Müsavat" əməkdaşı "FAB" şirkəti ilə əlaqə saxlayaraq yüklərin şirkətə məxsus maşında və qablarda daşınmasına münasibət öyrənməyə çalışıb. Sorğumuza cavab veriləcəyi bildirilib. Həmin cavab redaksiyamıza təqdim ediləcəyi halda yayımlayacağıq.**

Mövzuya qayıdacağıq.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Stalin Trotskiyə niyə qalib gəldi?

Hüseynbala SƏLİMOV

**Tarixin və siyasətin əbədi sualları var. Bəli, düz 225 il bundan əvvəl Bastiliyanın alınması ilə Böyük Fransa İnqilabı başladı. İnsanlar "Azadlıq, bərabərlik, qardaşlıq!" şüarları ilə küçələrə, meydanlara axışdılar. Avropa və dünya siyasətində yeni era başladı...**

O vaxt bəlkə də heç kim bilmirdi ki, bu inqilab haqqında yüzlərlə kitab yazılacaq, o vəsf ediləcək və lənətlənəcək. Amma hamı onun adındakı Böyük sözünü etiraf edəcək. Bəli, bu, həqiqətən də Böyük İnqilab idi - bunu hamı etiraf edirdi...

O vaxtdan sonra çox inqilablar oldu. Onlara bu günə qədər təsadüf olunur. Amma hamı bu günə qədər bir sual üzərində baş sındırır: inqilablar nə qədər zəruridir?

Hələ bu suala cavab tapan olmayıb. Ona görə ki, hələ də bəşəriyyət böyük dəyişikliklərin yalnız iki yolunu bilir: islahatlar və inqilablar... Üçüncü yolun tərəfdarları, üçüncü yol uydurmaq istəyənlər də var...

Amma o yerdə ki, üçüncü yol uydurmaq istəyirlər, orada gec-tez, labüdən inqilab baş verir. İnqilab istəməyənlərin bu günə qədər bir çarəsi məlumdur və hələ ki, başqa bir yol tapılmayıb: kim inqilab istəmirsə zəhmət çəkib islahat aparsın...

Bir daha deyirik ki, inqilabları sevənlər də var, onları lənətləyənlər də. Bəlkə də ona görə ki, bütün inqilabların bir M. Robespyeri və bir də J.Fuşesi olur. İnqilab nə qədər dinc, nə qədər "məxməri" olsa da o, özündə çox kiçik həddə olsa da, bu aqibəti yaşadır.

Yazıçı S.Sveyqin məşhur əsəri var. Adı da "Fuşe"-dir. Əsərdə yazıçı Fransa inqilabının bəzi məqamlarını, Fuşe-Robespyer qarşıdurmasını təhlil etməyə çalışıb.

Amma düşünürük ki, bu, iki şəxsin qarşıdurmasından daha dərindir. Bəli, bütün inqilablar idealizmlə (Pobespyer) realizmin (Fuşe) çarpışması deməkdir.

Robespyer idealist idi, o, insanları başa düşmürdü, ən kiçik ideya belə ona insan həyatından əzəl, önəmli idi. Amma Fuşe bunun tərsi idi. Onun üçün ideya önəmli deyildi. O, adi insanı, onun ehtiyaclarını, zəifliklərini daha yaxşı başa düşürdü, çünki realist idi.

Bu mənada Robespyer yalnız inqilabçıların, özü də idealist inqilabçıların lideri idi. Amma Fuşenin bazası daha böyük idi, çünki realizmə söykənirdi - o, gözəl bilirdi ki, Bastiliyaya hücum edənlərin heç də hamısı sona qədər idealist deyillər, onlara da adi insanlar kimi zəifliklər xasdır. Ona görə də Fuşe axırda Robespyerə qalib gəldi.

Ümumiyyətlə, bütün inqilabların bətnində əks-inqilab olur, o, inqilabı təqib edir, daban-dabana onun ardınca gəzir, inqilab idealistləşdikcə, ayaqları Yerdən üzüldükcə əks-inqilab daha realist olur...

Bu analogiyanı başqa inqilablara da şamil etmək olar. Vacib deyil ki, mütləq hər yerdə gilyotinlər qurulsun, dar ağacları basdırılsın. İnqilablar bunsuz da dramatik ola bilir. Ən əsası inqilabın bətnində idealizmlə realizmin, inqilabla əks-inqilabın çarpışmasıdır.

İnqilab qəhrəmanlıqdan başlayır. Ona görə də birinci, ilk olaraq Robespyer peyda olur. O, o qədər idealist olur ki, onun köməyilə inqilab başlayır özünün balalarını yeməyə.

Həm bu detal, həm də hamının idealist və qəhrəman ola bilməməsi sonda ona gətirib çıxır ki, bir gün Fuşe peyda olur. O, Robespyerlərin-idealistlərin yorduğu insanların müdafiəçisinə, hamisinə çevrilir. İnsan kütləsi əvvəlcə onun timsalında hansı şərin gizləndiyini duya bilmir, onlara elə gəlir ki, Fuşe onları daha yaxşı başa düşür...

Ona görə ki, Fuşe iki qanunu bilirdi. Birinci qanun bu idi ki, inqilab əbədi davam edə bilməz, insanlar gec-tez yorulur, sakit, adi həyata qayıtmaq istəyir.

İkinci qanun isə odur ki, insanların heç də hamısı qəhrəman olmur. Əksər hallarda onlar bir despotu ona görə devirirlər ki, əvəzinə başqa birisini taxt-taca çıxarsınlar...

Robespyerlər bunu heç vaxt başa düşmür. Onlara elə gəlir ki, insanlar hamısı idealist və qəhrəman olur. Ən başlıcası isə onlar düşünür ki, inqilablar əbədi davam etməlidir.

Trotski ilə Stalinin qarşıdurması yadınıza gəlirmi? Birinci idealist idi, permanent dünya inqilabının tərəfdarı idi, həm də düşünürdü ki, hamı onun kimi qəhrəmandır. Amma sovet Fuşesi - Stalin daha realist idi. O, adi rusu, o vaxt deyildiyi kimi, adi rus "mujiki"ni daha yaxşı başa düşürdü. Ona görə də qalib oldu...

Bu, tək Stalin-Trotski qarşıdurması üçün xarakterik deyildi. Bütün inqilablar bir-birinə bənzəyir. Adamlar bir-birinə oxşadığı kimi...

# Tanınmış fizik MEA rəhbərliyini saxtakarlıqda ittiham etdi

## Elman Şahverdiyev AMEA-ya keçirilən son seçkilərin ləğvini istəyir

**Tanınmış fizik Elman Şahverdiyev Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) keçirilən son seçkilərdən narazıdır. Alim bununla bağlı şikayətini "Yeni Müsavat"a ünvanlayıb, həmçinin dövlət başçısı İlham Əliyevə müraciət edərək seçkilərin nəticələrinin ləğv edilməsini xahiş edib. O, yazdığı şikayət məktubunda bildirir ki, AMEA-ya müxbir və həqiqi üzvlərin seçilməsi ilə bağlı keçirilən son seçki saxtakarlıqla dolu olub. Belə ki, nizamnaməyə uyğun olaraq, sözügedən seçki 3 ildən bir keçirilməli olsa da, qurumda 13 ildə cəmi 3 seçki keçirilib. Alimin iddiasına görə, seçkilərdə layiqli olmayan namizədlər yer tuta biliblər və seçki yuxarılardan gələn siyahı əsasında keçirilib.**



"AMEA-ya "seçkilər" marafonu 2 il yarımdan sonra nəhayət ki, adəti kimi Prezident Administrasiyasından gələn təyinat siyahısı üzrə keçirildi və 30 iyunda başa çatdı. Bu dəfə hətta əlavə yerlər üzrə belə siyahı göndərildi. Fizika üzrə müxbir üzvlüyə namizəd idim. Baxmayaraq ki, elmi işlərimə sitatların sayı, Hirş indeksim bütün elm sahələri üzrə AMEA-da ən yüksəkdir, mən kənarda qaldım. Hirş indeksi haqqında: bir alimin Hirş indeksini, məsələn, 5 olması o deməkdir ki, o alimin ən azından 5 məqaləsinə ən azı 5 sitat var. Sivil dünyada akademiyalara seçkilər, qrantların verilməsi, elmi vəzifələrə seçkilər elmi işlərə sitatlar Hirş indeksi əsasında keçirilir. Əksər ölkələrdən fərqli olaraq, MDB-də seçilmişlər əlavə maaşla təmin olunurlar. Azərbaycanda müxbir üzvlər 800 manat, həqiqi üzvlər 1200 manat əlavə pul alırlar ki, bu da "seçkilərdə" olan intriqaları iti süjetli dramaturgiya səviyyəsinə qaldırır və elmə aidiyyəti olmayan şəxslərin varlığını üzə çıxardır. Xaricdə akademiyalar daha çox alimlərin üzvlük haqqı ödədiyi müzakirə klublarını xatırladır, amma ora əsl seçki keçirilir, yeni yerlər satılmır. Amma üzvlər bir çox preferensiyalara malik olurlar, bəzi jurnallara pulsuz abunə, bəzi konfranslarda ödənişsiz iştirak və sair. Çox maraqlı bir faktı qeyd edim ki, Nobel mükafatı alanların az qala 90 faizinin Hirş indeksi 30-u keçir, onlarla məqalələrinə isə minlərlə və yüzlərlə sitatlar edilir. Fizika üzrə müxbir üzvlüyə təyin edilənlər arasında 1986-cı ildən xaricdə bir məqalə dərc etdirməyən, yalnız Azərbaycanda bir məqalə dərc etdirmiş Rauf Hüseynov var. O, ilin çoxunu ABŞ-da yaşayır və elmi işlə məşğul olmur. Görəsən, onda o, elmin inkişafında hansı xidmətlərinə, hansı qiymətli tədqiqatlarına görə belə yüksək elmi rütbəyə layiq görülüb? Sualın cavabı çox sadədir: belə bir adamın müxbir üzv təyin edilməsi ölkənin onlarla istedadlı elmi işçilərini ələ salmaq, elmi ictimaiyyəti məsxərəyə qoymaq, ona meydan oxumaqdır. Mesaj belədir ki, biz bizim Elmlər Akademiyasına elmlə məşğul olmayan adamı təyin edirik, təki "bizim adam" olsun. Çox güman ki, bu tendensiya elmi gözdən salmaq üçün düşünülmüş addımdır.

Digər təyin edilmiş müxbir üzv- İskəndər Cəfərov öz yazılı ərizəsi ilə sənədlərini geri alıb, sonradan yuxarıdan göstəriş əsasında sənədlərini geri qaytarıb. Maraqlıdır ki, onun adı elektorat üçün dərc olunmuş məlumat kitabçasında olmayıb. Bəs görəsən, elmi nəticələrə malik olmayan İskəndər Cəfərov hansı xidmətlərinə görə təyin edilib?

Təyin edilmişlər arasında 22 ildir Türkiyə və Almaniyada yaşayan, yalnız 2013-da doktorluq diplomunu almış Ənvər Nəhmədov da var. Yaşı 70-i haqlayan bu şəxs son 3-4 il ərzində Ənvər Nəhmədovun müəllifi olduğu məqalələrə həmmüəllifik edərək çox nüfuzlu "Physical Review" jurnallarında məqalə dərc etdirmiş azsaylı azərbaycanlı alimlərin siyahısına daxil olub. Şəxsi maraqlarını hər şeydən üstün tutan bu şəxsin təyin etdirdiyi ikinci adam-fizika üzrə baza təhsili olmayan, yalnız bir neçə aydır ki, direktor təsdiq olunmuş Nazim Məmmədov-dur" deyə, fizik məktubunda bildirir.

**Onun sözlərinə görə, Elmin İnkişaf Fondunun (EİF) indiyə qədər Azərbaycan elminə qoyduğu vəsaitin az qala yarısı Nazim Məmmədovun adının keçdiyi pilot və sair layihələrə ayrılıb:** "Milyonlarla qrant almasına baxmayaraq, Nazim Məmmədov yalnız tək-tük məqalələrində aparıcı müəllif kimi çap olunub, əksəriyyət məqalələrdə isə o ya sonuncu və ya 5-ci, 6-cı yerlərdə qərar tutub. Əlbəttə, müasir elm xarici alimlərlə geniş əməkdaşlıqdan keçir. Amma hər şeyin həddi var! Nazim Məmmədovun həmişə məşğul olduğu mövzu marginal bir mövzu olduğundan o, bir az aktual sahələrə baş vurmağa çalışır, gah topoloji izolyatorlara aid məqalələrə həmmüəllif-lik edir, gah AMEA Rəyasət Heyətində ona qətiyyən aidiyyəti olmayan ksistalloqrafiya sahəsində aktual bir təqdimatda həmməruzəçi kimi çıxış edir, gah da doktorluq dissertasiyaları hazır olmuş alimlərə, görünür, asan müdafiə müqabilində, məsləhətçilik edir.

Bax indi sual olunur ki, görəsən, yenicə direktor təsdiq edilmiş Nazim Məmmədov elmin inkişafında hansı xidmətlərinə və hansı qiymətli tədqiqatlarına görə ən yüksək elmi rütbələrdən birinə layiq görülüb?"

**Şikayətçi Fizika İnstitutunda çalışan kurator Oqtay Ələkbərovdan da söz açır və bildirir ki, Fizika İnstitutunun əməkdaşlarının təhlükəsizliyini təmin etmək və fizika-riyaziyyat-texnika elmlərini Oqtay Ələkbərovun əsarətindən xilas etmək lazımdır. O, hətta bununla bağlı dövlət başçısı İlham Əliyevə xüsusi olaraq da müraciət etdiyini vurğulayır:** "Belə görünür ki, PA-nın təyinat siyahısı elmin inkişafına yox, əksinə, onun tənəzzülünə yönəlmiş düşünülmüş bir addımdır, çünki bu təyinatlar elmdə ən yüksək rütbələrin layiq olmayanlara verilmiş hədiyyədir, AMEA-da çalışan onlarla istedadlı alimə mesajdır ki, biz elmi nailiyyətləri sivil dünyada qəbul olunan qaydalara görə yox, öz şəxsi istəyimizə görə, bizə sərf edən formada qiymətləndiririk. Xahiş edirəm yaranmış vəziyyətdə seçkilərin AMEA Nizamnaməsinə uyğun keçirilmədiyini nəzərə alaraq seçkilərin ləğv edilməsi və elm adamları üçün yeni seçkilərin keçirilməsi üçün müvafiq qurumlara göstərişlərinizi verəsiniz".

Qeyd edək ki, Elman Şahverdiyev 1997-ci ildən fizika-riyaziyyat elmləri doktorudur. AMEA Fizika İnstitutunda laboratoriya rəhbəridir və dinamik sistemlərdə xaosun idarə olunması problemləri ilə məşğul olur. Qarşı tərəfin də mövqeyini işıqlandırmağa hazırıq. Mövzunu diqqətdə saxlayacağıq.

❑ RÖYA

YENİ MÜSAVAT
N 179 (5888) 15 iyul 2014

**Naxçıvan xanı biznesini genişləndirir**

# Vasif Talıbov Naxçıvana "85" qadağası qoydu

## Vasif Talıbovun göstərişi ilə əhalidən yığılan köhnə maşınlar "NAZ"da əridilərək istifadə olunacaq; Naxçıvanda yeni marka avtomobil buraxılacaq

**Naxçıvanda buraxılış ili köhnə olan avtomobillərə qadağa qoyulub. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə göstəriş Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovdan gəlib. Naxçıvan sakinlərindən verilən məlumatda deyilir ki, əvvəllər də Vasif Talıbovun belə bir qərarı olub. Taksi kimi fəaliyyət göstərən Rusiya istehsalı olan maşınlar və motosikletlər yığılıb. Sürücülərə kreditlə hissələri Çindən gətirilərək Naxçıvanda yığılan "Lifan" markalı avtomobillər satılıb.**



### Hər köhnə maşın gətirən 160 manat alır

Yerli sakinlərin bildirdiyinə görə, əhalidən yalnız ili 1985-ci ilə kimi olan maşınlar yığılır. Naxçıvan şəhərindəki avtomobil zavodunun həyətinə bir xeyli ili köhnə maşın gətirilib. Onların sözlərinə görə, "NAZ"da köhnə maşınları qəbul edərkən sənədlərinə mütləq baxılır. Buraxılış ili 85-ci ilə kimidirsə 160 manat verilərək qəbul olunur. Məlumatda qeyd olunur ki, artıq Naxçıvanda bir neçə alverçi kənd-kənd gəzərək ili köhnə avtomobilləri əhalidən yığaraq zavoda satır. Bəziləri isə köhnə avtomobilin müqabilində kəndlilərə eşşək verir. Üstəlik, işlək vəziyyətdə olan maşınların şəhərə çıxmasına da qadağa qoyulub. Naxçıvan polisinə tapşırılıb ki, köhnə maşınları harada görsəniz saxlayıb, cərimə meydançasına aparın.

### Vasif Talıbov zavodunu genişləndirir

Naxçıvan Ali Məclisinin sədrinin bu addımı atmasına səbəb isə "NAZ"ın Çinin "Lifan" avtomobil zavodu ilə əməkdaşlığı dayandırmasıdır. Eyni zamanda Naxçıvandakı zavodda "Lifan" markalı avtomobillərin də buraxılışı dayandırılacaq. Zavod genişləndirildikdən sonra Naxçıvanda yeni marka avtomobillər istehsal olunacaq. Bunun üçün zavodun ərazisi 40 hektar daha artırılıb. Yeni ərazidə tikinti işlərinə başlanılıb. Eyni zamandan məşhur İtaliya avtomobil şirkəti olan "Fiat"ın dizaynerlərindən bir neçəsi "NAZ"a dəvət olunub.





Məlumatda deyilir ki, "NAZ"da "London taksiləri" də istehsal olunacaq. Bunun üçün İngiltərənin "TX4" avtomobil şirkəti ilə müqavilə bağlanacaq. İstehsal olunan avtomobillər həm Naxçıvan, həm Bakı, həm də digər rayonlara satılacaq.

Məlumat üçün qeyd edək ki, "NAZ" 2006-cı ildə Gəncə avtomobil zavodunda istehsal olunan nəqliyyat vasitələrinin satışını təşkil etmək məqsədilə Naxçıvan şəhərində nümayəndəlik yaratmaqla fəaliyyət başlayıb. 2008-ci ildə zavod üçün yeni bina tikilərək istifadəyə verilib.

2009-cu ildə Pekində keçirilən Çin-Azərbaycan biznes-forumu çərçivəsində Naxçıvan Avtomobil Zavodu və Çinin "CHONGQING LIFAN INDUSTRY (GROUP) IMP. & EXP. CO., LTD." Avtomobil Korporasiyası arasında əməkdaşlıq sazişi imzalanıb. Sazişə əsasən, Naxçıvanda "Lifan" markalı minik avtomobillərinin yığımı təşkil olunub.

Hazırda Zavodda Almaniya, Belçika və İtaliyada hazırlanan son model avadanlıqlardan istifadə olunur. Zavodun ümumi sahəsi 2.6 ha təşkil edir. Bura 2472m2 sahəsində istehsal sexi, 720m2 sahəsində anbar, 2538m2 sahəsində dayanacaq meydanı, 500m2 əhatə edən sınaq meydançası və 450m2 sahəsində sərgi salonu daxildir. Zavod ildə 5000 ədəd avtomobil istehsal etmək gücünə malikdir. Zavodda 100 nəfər yerli işçi çalışır. İstehsal çinli mütəxəssislərin nəzarəti altında həyata keçirilir.

❑ **Fərahim İLQAROĞLU**



# Rektor babanın söylədiyi həqiqətlər

## Əhməd Vəliyev dolayısı ilə bildirir ki, ölkədəki təhsillə "Biləcəridən o tərəfə çıxmaq" mümkün deyil

**Beynəlxalq Təhsil Kompleksinə daxil olan liseylərin fəaliyyətinin dayandırılmasına Milli Məclisdə fərqli münasibətlər var. Bəzi millət vəkilləri liseylərin bağlanmasının gələcəkdə xeyli problemlər yaradacağını bildirsələr də, bunun əksini söyləyən deputatlar da var. Bu cür düşünənlər həmin liseylərin varlığının potensial təhlükə olduğunu iddia edirlər. Millət vəkili, parlamentin elm-təhsil komitəsinin üzvü, Odlar Yurdu Universitetinin rektoru, professor Əhməd Vəliyev bu mövzuda müsahibə verib. Müsahibədə maraqlı məqamlardan biri deputatın nəvələrinin təhsil üçün ölkə məktəblərini seçməməsidir. Belə ki, onlar dövlət məktəblərini deyil, əvvəlcə ingilisdilli özəl məktəb olan "British School"da oxuyublar, daha sonra da Londonda təhsillərini davam etdirirlər.**

"Nəvələrim hamısı yüksək səviyyədə oxuyurlar. Bir neçəsi Londonda təhsil alır",- deyən Ə.Vəliyev bildirib ki, nəvələri orta təhsillərini ingiliscə bitirdiklərinə görə onlar məcburiyyət qarşısında qalıb gedib Londonda oxuyurlar: "Yoxsa Azərbaycanın özündə də ali təhsil ala bilərdilər. Sadəcə təhsilləri burada ingiliscə olduğuna görə İngiltərədə qəbul ediblər".

**Deputatın sözlərinə görə, bu, ölkə təhsilinə güvənsizlik deyil:** "Mən Azərbaycan təhsilinə güvənməsəm, deməli, onda Azərbaycan millətinə də güvənmirəm. Elə şey olar? Hər birimiz çalışmalıyıq ki, ölkəmizə xidmət edək. Qüdrətli bir dövlətimiz var... Britaniya məktəbi erməni məktəbi deyil ki, Azərbaycan Təhsil Nazirliyinin lisenziyası əsasında fəaliyyət göstərən məktəbdir. Orada Azərbaycan dili, tarix, coğrafiya, konstitusiyamız ana dilində tədris olunur. Ümumi dil sadəcə ingilis dilidir. Biz dünyəvi olmalıyıq, Biləcəridən o tərəfə çıxa bilməriksə, onda təhsil kimə lazımdır?"

Ekspertlərsə bildirirlər ki, övladı üçün daha yaxşı məktəb tapmaq valideynin seçimi olsa da, özəl məktəblərin seçilməsində əsas səbəb keyfiyyətdir. Yeni ildən-ilə dövlət məktəblərində təhsilin keyfiyyətinin aşağı düşməsi özəl məktəblərə tələbatı artırır. İmkanı olan valideynlər övladlarını özəl məktəblərdə oxudurlar.

**"XXI Əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyevin sözlərinə görə, əslində dövlət məktəblərində təhsilin keyfiyyəti daha yaxşı olmalıdır:** "Övladını özəl, yaxud dövlət məktəbində oxutmaq vətəndaşların öz seçimidir. İnsanlar müstəqil maliyyə imkanlarından asılı olaraq müstəqil seçimlər edirlər. Övladlarının təhsili üçün orta, ali məktəb seçirlər. Azərbaycanda türk liseylərində də təhsil haqqı bir o qədər ucuz deyildi. O məktəblər də bahalı məktəblər idi və o məktəblərdə çox ciddi konkurslar, müsabiqələr nəticəsində qəbul baş tuturdu. İndi türk liseyləri, "Araz" kursları bağlanıb. Bu da müəyyən müddət sonra öz təsirini göstərəcək. O məktəblər rəqabət mühiti yaradırdı. Burada söhbət insan kapitalından gedir. Hər bir valideyn övladının gələcəyini yaxşı görmək üçün vəsaitini övladının təhsilinə qoyur. Bu gün yaxşı məktəblər əslində dövlət məktəbləri olmalıdır. İldə hər bir şagirdə 600-1200 manat vəsait ayrılır. Dövlət məktəbləri vaxtilə çox inkişaf etmişdi, o zaman heç özəllər yox idi. Bu, o demək deyil ki, indi özəl məktəblər dövlət məktəblərini küncə sıxışdırır. Sadəcə təhsilin keyfiyyəti çox geri gedib. Bu da müxtəlif səbəblərlə bağlıdır - kadr seçimi, məktəb mühiti, dərsliklər, müəllim hazırlığı və sair bir-birinə bağlı olan məsələlərdir. Konkret olaraq kimsə məktəb yaradırsa, buna tələbat hiss edən insanlar övladlarının təhsili üçün vəsait xərcləyəcəklər".

❑ **RÖYA**

# Milli Şurada seçkilərlə bağlı ikitirəlik var

## Qurumdakı partiyalardan bəziləri bələdiyyə seçkilərində iştirakla bağlı qəti qərar qəbul ediblər, bəziləri isə bunun əleyhinədir

**Bu ilin dekabrında Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Seçkilərə 5 ay qalmasına baxmayaraq, ölkə müxalifəti seçkilərlə bağlı qəti qərar verməyib. Bəzi partiyaları çıxmaq şərti ilə müxalifətin əsas hissəsinin bələdiyyə seçkilərində iştirakı sual altındadır.**



Seçkilərdə iştirak edib-etməməklə bağlı qərarsız olan siyasi qurumlardan biri də Milli Şuradır. Bu qurumun daxilində ikitirəlik yaranıb. Belə ki, Milli Şuraya daxil olan partiyalardan bəziləri artıq seçkilərdə iştirakla bağlı qəti qərar qəbul ediblər. Bu istiqamətdə hazırlıq işlərinə də start veriblər.

Milli Şuranın sədri Cəmil Həsənli iyulun 14-də "Yeni Müsavat"a açıqlamasında bələdiyyə seçkiləri ilə bağlı sualı cavablandırarkən seçkilərdə iştirakla bağlı hələ də qurum daxilində qərar verilmədiyini bildirmişdi: "Milli Şura bu barədə son qərar verməyib. Lakin şurada təmsil olunan siyasi partiyaların və ictimai təşkilatların bələdiyyə seçkilərinə getməsinə normal yanaşır. Biz hesab edirik ki, bələdiyyə seçkilərinə seçki islahatlarına başlamaq məqamı kimi yanaşmalıyıq. Bələdiyyələr bir qayda olaraq icra orqanlarının yedək orqanına çevrilib və heç bir hakimiyyət mexanizminə malik deyil. Yəni həm seçki islahatı, həm də bələdiyyə islahatları ictimai-siyasi zərurət xarakteri daşıyır".

**Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev əsas işlərinin seçki komissiyalarının tərkibinin dəyişdirilməsi olduğunu qeyd etdi:** "Cəmil bəy bu məsələyə "Yeni Müsavat"a açıqlamasında aydınlıq gətirib. Bu fikirlərin üzərinə əlavələr etmək istəmirəm. Sadəcə onu deyə bilərəm ki, Milli Şuraya daxil olan bəzi partiyalar seçkilərdə iştirakla bağlı qərar qəbul ediblər. Biz buna normal yanaşırıq. Çünki Milli Şura yarananda bu barədə qərar qəbul edilməyib. Bu baxımdan seçkilərdə iştirak etmək quruma daxil olan hər bir partiyanın hüququdur. Amma reallıq bundan ibarətdir ki, indiki şəraitdə ən çox seçki komissiyalarının tərkibinin dəyişdirilməsi istiqamətində fəaliyyətimizi genişləndirməliyik. Çünki ölkəmizdə olan bütün seçkilər kimi, bələdiyyə seçkiləri də total şəkildə saxtalaşdırılır. Bələdiyyələrin statusları, təsir imkanları məhdudlaşdırılır. İnsanlarda da artıq seçkilərlə bağlı pessimistlik hökm sürür".

**Milli Şuraya daxil olan KXCP isə bələdiyyə seçkilərində iştirakla bağlı qərar qəbul edib. KXCP sədrinin müavini Xəzər Teyyublu Milli Şura seçkilərdə boykot qərarı qəbul etsə belə, iştirak edəcəklərini bildirdi:** "Artıq bələdiyyə seçkiləri ilə bağlı hazırlıq işlərimiz başlayıb. Bununla bağlı Naxçıvandan başqa, bütün rayonlarda zona müşavirələri keçirdik. Bu müşavirələrdə yalnız bir istiqamətdə müzakirələr apardıq. Bələdiyyələrə verilən statuslar və namizədlərin müəyyənləşdirilməsi. Yazılı surətdə təlimatlarımızı da verdik. Zamanı gələndə namizədlərimizi açıqlayacağıq. Çox ehtimal ki, partiya rəhbərliyinə daxil olan şəxslərdən də seçkilərdə iştirak edən olacaq. Partiyamızın bu ilin martında keçirilən məclisində qarşıdan gələn bələdiyyə seçkilərində iştirakla bağlı qərarı var. Biz istərdik ki, Milli Şura və digər siyasi qurumlar da seçkilərdə iştirak etsin. Əminik ki, belə də olacaq. Əgər Milli Şura bu istiqamətdə hər hansı bir qərar verməsə, KXCP yenə öz qərarını icra edəcək".

❑ **Cavanşir ABBASLI**

# "AXCP Elçibəylə birlikdə gedib"

**Fazil Mustafa:** "Sonrakı dövrlərdə tamamilə deformasiyaya uğramış AXCP anlayışı yarandı"


Fazil Mustafa

**"AXC-nin yaranmasının 25 illik yubileyini qeyd etməyə bütün cəbhəçi hərəkatı üzvlərinin, AXCP, KXCP, BXCP və Müsavat Partiyasının da haqqı çatır. Buna həm də bütün Azərbaycan xalqının haqqı var".**

Bunu modern.az-a Böyük Quruluş Partiyasının başqanı, deputat Fazil Mustafa deyib.

Onun sözlərinə görə, AXC-dən söz düşəndə Əbülfəz Elçibəyin rəhbərlik etdiyi təşkilat əsas götürülür: "Ona görə də bu təşkilatın adı ilə Azərbaycan cəmiyyətinə təqdim olunub. Sonrakı dövrlərdə tamamilə deformasiyaya uğramış, müəyyən dərəcədə hədəflərinə çatmayan, başqa məqsədlərə xidmət edən AXCP anlayışı yarandı. Bu gün kim özünü bu təşkilatın varisi hesab edirsə, onun da ayrıca tədbir qeyd etməyə haqqı çatır".

**F.Mustafanın fikrincə, indiki AXCP əvvəlkindən çox fərqlidir:** "AXCP Əbülfəz Elçibəylə birlikdə gedib. AXCP Elçibəydən sonra Azərbaycan cəmiyyətində faktiki olaraq hansısa bir rolu olan təşkilat kimi qalmadı və hədəflərindən uzaqlaşdı. 25 illiyi qeydetmə haqqı istənilən insanda var. İndi qeyd olunan tarix Əbülfəz Elçibəy AXCP-sinin tarixi kimi qiymətləndirilməyəcək. Onun tarixdə böyük yeri vardı".

Qeyd edək ki, iyul ayının 16-da Azərbaycan Xalq Cəbhəsinin 25 illik yubileyi keçiriləcək. Yubileylə bağlı AXCP, BXCP, KXCP-nin tədbirlər keçirəcəyi gözlənilir.

# Gürcüstanın Avropa Birliyi ilə saziş imzalaması soydaşlarımıza nə vəd edir?

**Zəlimxan Məmmədli:** "Əgər Avropaya inteqrasiya prosesi belə rəvan getsə..."


Zəlimxan Məmmədli

**Gürcüstan, Ukrayna və Moldovanın Avropa Birliyi ilə assosiativ saziş imzalamalarının hər üç dövlətin gələcəyi üçün böyük imkanlar açdığı bəllidir. Bu dövlətlər Avropa ailəsinin tam hüquqlu üzvü olmaq yolunda çox ciddi bir addım atmış olublar. Gürcüstan Azərbaycanın yaxın qonşusudur və orada 500 min Azərbaycan türkü yaşayır. Deməli, Avropa Birliyi ilə assosiativ saziş soydaşlarımızın da taleyində özünü göstərəcək. Bu mövzuda söhbət etdiyimiz "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli bildirdi ki, Gürcüstanın Avropa Birliyi ilə assosiativ saziş imzalaması demokratiya yoluna qədəm qoymuş dövlətdə demokratik islahatların daha da dərinləşməsinə gətirib çıxaracaq. Bu isə Gürcüstandakı soydaşlarımızın da maraqlarına uyğundur: "Dünyada üstün, düzgün idarəetmə və ya yaşayış forması demokratik cəmiyyətdir. Demokratiyanın bərqərar olduğu Avropa ailəsinə qoşulma Gürcüstan və onun xalqı üçün ciddi uğurdur, üstünlükdür. Gürcüstan daha üstün dəyərlər daşıyıcı olan bir dövlətə çevrilə bildi. Hesab edirəm ki, Borçalı türkləri də Gürcüstan dövlətinin vətəndaşları, ayrılmaz hissəsi olaraq bu ölkənin Avropa Birliyi ilə assosiativ sazişinin gətirəcəyi dvidentlərdən faydalanacaqlar. Avropa Birliyi şengen dövlətlərinə girişi çox sadələşdirir. Gürcüstanın Avropa Birliyi ilə saziş imzalaması gələcəkdə soydaşlarımızın da dünya ilə inteqrasiyasına təkan verəcək".**

Zəlimxan Məmmədli dedi ki, iqtisadi baxımdan Gürcüstanın əldə edəcəyi üstünlüklər, assosiativ sazişin tələb etdiyi islahatların keçirilməsinin gətirəcəyi faydalar da Gürcüstandakı soydaşlarımızın xeyirinə olacaq. Milli azlıqlar haqqında beynəlxalq konvensiyalar, Avropa Birliyinin bu istiqamətdə qəbul etdiyi ortaq dəyərlər soydaşlarımıza da tətbiq olunacaq: "Əgər Avropaya inteqrasiya prosesi belə rəvan getsə, bir zamanlar bizim məşğul olduğumuz sahələr bizə gülməli gələcək. Ona görə ki, Avropa ailəsində etnik ayrımçılıq gözə çarpmır. Postsovet məkanında isə etnik ayrımçılıq gözə girir və problem mənbəyidir. Assosiativ saziş ümumiyyətlə GUAM ölkələrinin, bu ölkələrin vətəndaşlarının perspektivi üçün çox əhəmiyyətlidir. Çox istərdik ki, GUAM-dakı müttəfiqləri kimi Azərbaycan da Avropa Birliyi ilə assosiativ sazişi imzalayaydı. Azərbaycanın Avropa ailəsindən kənarda xoş gələcəyini təsəvvür eləmək çox çətindir".

❑ E.SEYİDAĞA

# Media məzhəblərarası məsələni qızışdırır?

## Redaktorlardan bu irada cavab gəldi

**Son günlər dünyanı əsir alan əsas mövzulardan biri heç şübhəsiz ki, məzhəblərarası münaqişədir. Elə gün olmur ki, efirdə bu mövzu ilə bağlı yeni xəbər, video yayılmasın, saytlar bundan yazmasın, qəzetlər müzakirə açmasın. Amma bu məsələdə medianı qeyri-həssas davranışda ittiham edənlər var.**


**Sücəddin Şərifov:** "Baş verəni gizlətmək olmaz, amma...."


**Elçin Zahiroğlu:** "Mətbuat məzhəb məsələlərində çox ehtiyatlı olmalıdır"


**Taleh Şahsuvarlı:** "Bir jurnalist olaraq məzhəblər haqqında düşüncələrimizi sərgiləmək bizim Ana Yasa haqqımızdır"

Bir çox dini ekspertlər hesab edir ki, Azərbaycan mediası məzhəblərarası məsələlərlə bağlı müəyyən qədər susqunluq nümayiş etdirməlidir. Hətta mətbuatı bu problemin yatmasına maneçilik törətməkdə ittiham edənlər də var. Bəs redaktorlar bu barədə nə düşünür? Məzhəblərarası məsələlər media üçün tabu olsun? Problemin yatmasının suçu qələm əhlinin üzərindədir?

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifov hesab edir ki, ümumiyyətlə, hər hansı media orqanı onları gizlətməməlidir. Bu, təkcə məzhəb məsələsində yox, eyni zamanda kriminal, erməni mətbuatı ilə bağlı məsələlərdə də üzə çıxır:** ""Azadlıq" qəzetinin xətti odur ki, baş verəni gizlətmək olmaz. Biz burda elə etməliyik ki, media olaraq məzhəblərarası barışdırıcı, maarifləndirici mövqe tutaq. Baş verənləri işıqlandırmaq əsas missiyamız olmaqla yanaşı, dediyim məsələdə mövqeyimiz də bu cür olmalıdır".

**Əməkdaşımızın "medianın bu mövzuda nə zamansa qızışdırıcı mövqe tutduğunu düşünürsüz" sualına cavabda isə S.Şərifov dedi ki, bəzən hansısa xəbər təqdimatından asılı olaraq birilərinə pis təsir edə bilər:** "Amma bunu mətbuatın problemi saymaq olmaz".

**Aznevs.az saytının redaktoru Elçin Zahiroğlu da hesab edir ki, mətbuatın başlıca işi cəmiyyətin informasiya təminatını yerinə yetirməkdir. Müsahibimiz bu məsələdə də hansısa prosesin gizlədilməsinin tərəfdarı olmadığını dedi:** "İnformasiyanı boğub saxlamaq bəzən işin ziyanına olur. Məsələn, reallığı əks etdirməyən şayiələrin yayılmasına gətirib çıxarır. Ancaq mətbuat nümayəndələri məzhəb məsələlərində çox ehtiyatlı olmalıdır. Hesab edirəm, məişət zəminində baş verən hansısa qalmaqalla təriqətlər arasında yaranan gərginliyi eyni əhval-ruhiyyədə yazmaq, cəmiyyətə çatdırmaq olmaz".

**Müsahibimiz hesab edir ki, bu xəbərlərin təhrikedici olması, qızışdırıcı effekt verə biləcəyini nəzərə almaq lazımdır:** "Mətbuatımız qızışdırıcı təqdimatlardan, odlu, alovlu, "aypi gətirən" başlıqlardan bu məsələlərdə kullanmasalar yaxşıdır".

**"Gündəlik Teleqraf" qəzetinin şef redaktoru Taleh Şahsuvarlı hesab edir ki, Azərbaycanda dinlə bağlı maarifləndirmə yetərli səviyyədə deyil. O, "maarifləndirmə" adı altında bir çoxlarının öz dini ehkamlarını yaymasından təəssüfləndiyini bildirdi:** "Bu gün hər dini qrupun öz "əsl İslamı" mövcuddur və bu "əsl İslam"ın nədən ibarət olduğu da obyektiv düşünən kimsəyə məlum deyil. Üstəlik, Azərbaycanda İslam dininin tarixi və məzmunu, bugünkü beynəlxalq hüquqa zidd cəhətləri barədə oyektiv təhlillər aparmaq problemi var. Məhəmməd peyğəmbərin, xəlifələrin, əshabələrin şəxsiyyəti, fəaliyyətləri ilə bağlı müxtəlif qaynaqlardan rəyləri səsləndirmək olmur. Misal üçün, mənim İslam tarixində ən sayğı duyduğum xəlifə olan Həzrət Əli bizim azərbaycanlıların təsəvvüründə uca boydur, hansı ki, onun uzunluğu 1 metr 60 santimetr civarında olub. Bu cür qeyri-səlislik bütövlükdə İslam tarixinə yanaşma səciyyəvidir".

**T.Şahsuvarlı hesab edir ki, müxtəlif dini qrupların basqıları altında səviyyəli ictimai müzakirələr getmir. Əgər bu cür müzakirələr, təhlillər aparılsaydı, o zaman Azərbaycanda sələfilik, vəhhabilik, nurçuluq və bu kimi qeyri-ənənəvi İslam cərəyanları özlərinə tərəfdar tapmazdı:** "Ənənəvi İslam Azərbaycan üçün heç bir təhlükə törətmir, çünki həm yüzillər ərzində onun cəmiyyətdəki yeri konkretləşib, bu münasibətlər tolerantlıq müstəvisinə keçib, həm də elm, Axundovlar, Mirzə Cəlillər, Üzeyir Hacıbəyovlar tərəqqi amalını ondan önə çıxarıblar. Ancaq qeyri-ənənəvi cərəyanlar ölkə üçün ciddi təhlükə mənbəyidir və Suriyada döyüşməyə gedənlər bu təhlükənin cüzi bir görsəntisidir. Yaxud bu yaxınlarda Bakıdan, Sumqayıtdan Sabirabada maşın-maşın gedənlər olubsa, bu barədə cəmiyyətin düşünən insanları öz səsini ucaltmalıdır. Bir hüquq dövlətində bu cür karvan təşkil edib kimlərinsə məhkəmənin səlahiyyətini mənimsəmək iddiasına düşməsi yolverilməzdir. Düşünürəm ki, bu işdə dövlətin, hüquq-mühafizə orqanlarının fəaliyyətinə dəstək vermək hər birimizin borcudur. Bir jurnalist olaraq dini ayrı-seçkilik salmadan, müxtəlif əqidələr arasında təfriqə yaratmağa rəvac vermədən həm dinlər, həm də məzhəblər haqqında düşüncələrimizi sərgiləmək bizim Ana Yasa haqqımızdır".

❑ Sevinc TELMANQIZI

# Pərviz Həşimlinin məhkəməsi iyulun 17-nə qaldı

## Vəkilləri məhkəmənin istintaqla keçirilməsində israrlıdır



**İyulun 14-də Bakı Apelyasiya Məhkəməsində "Bizim Yol" qəzetinin əməkdaşı, hüquq müdafiəçisi Pərviz Həşimlinin məhkəməsi keçirilib. Bu barədə "Yeni Müsavat"a açıqlamasında P.Həşimlinin vəkili Elçin Sadıqov məlumat verdi. Onun sözlərinə görə, məhkəmə daha öncə prosesin istintaqsız keçirilməsi ilə bağlı qərar vermişdi. Vəkillər də ilkin qərardan kasasiya şikayəti veriblər.**

Vəkilin bildirdiyinə görə, proses iyulun 17-də, saat 14.30-da davam edəcək. E.Sadıqov hesab edir ki, həmin vaxt proses qeyri-müəyyən vaxta qədər təxirə salına bilər.

❑ Sevinc TELMANQIZI

# YAP funksioneri prezidentdən kömək istədi

## Arif Rüstəmov: “5 ildir bəzi hakimlər cinayətkarları müdafiə edir”

**YAP-ın qurucularından olan Arif Rüstəmov iyulun 14-də RATİ-də mətbuat konfransı keçirdi. O, prezidentə müraciət edərək, ailəsinin qanının batırılmaması üçün kömək istədi. A.Rüstəmov dedi ki, 1992-ci ildə YAP ideyasına qoşulanlardan, hakim partiyanın ilk üzvlərindən olub: “1992-93-cü illərdə Heydər Əliyevin prezident seçkilərində iştirakını əngəlləmək üçün ortaya atılan yaş senzi ilə bağlı qanundakı maddənin dəyişdirilməsini azyaşlı oğlanlarımla birlikdə Ali Sovetin qarşısında aksiya keçirib, tələb etmişəm.**






İndi də ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısı, cənab İlham Əliyevin uzaqgörən siyasətini dəstəkləyirəm. Həmçinin müharibə veteranıyam. YAP-ın qurulmasında və güclənməsində fərqlənməyimə görə fəxri diplomla təltif edilmişəm, hazırda partiyanın ərazi təşkilatının sədriyəm. Son beş ildə isə bəzi məmurların, hakimlərin başıma gətirdiyi oyunlardan cana doymuşam. Qərəzli hakimlər mənim ailəmin qanını batırırlar. 11 dekabr 2009-cu il tarixdə Rüstəmov Pərvaz və Rüstəmov Rüstəm (ata-oğul) cinayətkar qrup kimi mənə və ailə üzvlərimə hücum edərək bizi döymüş, təhqir etmiş, bıçaqlamışlar. Səbəb də odur ki, onlar mənim Hövsanda qızım üçün tikdiyim evi ələ keçirmək istəyirlər. Buna görə də Rüstəmin barəsində CM-in 212.3, Pərvazın barəsində isə 121.2.1-ci maddəsi ilə cinayət işi başladı, lakin onlar himayədarları olduğu üçün qanunsuz olaraq xeyli müddət həbs edilmədilər. Nəhayət, Bakı Apelyasiya Məhkəməsinin hakimi Mirpaşa Hüseynovun 25 iyul 2013-cü il tarixli qərarı ilə R.Rüstəmov bizə qarşı törətdiyi cinayətlərə görə 3 il azadlıqdan məhrum edilmişdi. P.Rüstəmov isə törətdiyi cinayətlərə görə qanun qarşısında cavab vermədi. Daha sonra cinayət işini pərdələmək üçün oğlum Rüstəmov Raminə qarşı mülki iddia qaldırıblar ki, guya həmin evi oğlumla şərikli tikdirib. Rəsmi sənədlərlə isə təsdiq edilir ki, həmin evi mən özüm tikmişəm”.

**A.Rüstəmov deyir ki, qarşı tərəfin bu iddiası Suraxanı Məhkəməsində rədd olunub:** “Rüstəmovların dərhal qətnamədən verdikləri apelyasiya şikayəti də təmin edilmədi. Bundan sonra o, Ali Məhkəmədəki havadarları ilə sövdələşərək Apelyasiya Məhkəməsində R.Rüstəmovun barəsində çıxarılan həbs qərarından şikayət verərək, işi öz yaxınları - məhkəməyə sədrlik edən İ.K.Hüseynov, hakim R.S.Nəbizadə və əsas yaxın adamları Vafəddin İbayevin də tərkibində olduğu məhkəmə kollegiyasına saldırdılar. 17 mart 2014-cü il tarixli qərarla R.Rüstəmovun onun cəzasını 1 il 6 aya endirdilər. Halbuki V.İbayev cinayət yox, mülki kollegiyanın hakimidir və onun cinayət işinə baxmaq səlahiyyəti yoxdur. Təsəvvür edin, V.İbayev Rüstəmovların işi ilə nə qədər maraqlıdırsa, onlarla bağlı həm mülki, həm də cinayət işini hər dəfə özünə saldıraraq Rüstəmovların xeyrinə ədalətsiz qərarlar çıxarır! Həmçinin Vəfaddin İbayev 15 il əvvəl mənə qarşı da Suraxanı Rayon Məhkəməsində mülki işə baxaraq qərəzli qətnamə qəbul etmişdi, onun qətnaməsi Apelyasiya Məhkəməsi tərəfindən ləğv edilmişdi. Rüstəmov Pərvaz bir neçə dəfə qarşımı kəsərək bildirib ki, onun Ali Məhkəmədə sanballı adamları var, hansı ki, onun oğlunun və özünün işini həll edirlər, onlardan biri də Vəfaddin İbayevdir. Beş ildir ki, işi cinayətkarın xeyrinə həll edirlər və cinayətkar da cinayət əməllərindən əl çəkmir. Rüstəm Rüstəmov 8 nəfərin ölümünə səbəb olan qəzalar törədib. Son 5 ildə o, azadlıqda gəzməsi səbəbindən birinci dəfə ”VAZ-2107" markalı avtomobillə toqquşdu. Maşında olan bir ailənin 5 üzvü öldü. Ancaq o, məsuliyyətə cəlb edilmədi. Daha sonra 3 azyaşlı uşağın ölümü ilə nəticələnən qəza törətdi. O, yenə də azadlıqdadır. Bütün bu qanunsuzluqlara necə göz yumulur? Rüstəm Rüstəmovun cəzasını şəxsi maraqlarına görə yarıya endirən hakim Vəfaddin İbayev indi də P.Rüstəmovla əlbir olub, Apelyasiya Məhkəməsinin 26 fevral 2014-cü il tarixli - oğluma qarşı əsassız iddiaya dair çıxarılan ədalətli qətnaməsini ləğv etməyə çalışır, bu işi də öz icraatına saldırıb. Cənab prezident, çox xahiş edirəm ki, bu məkrli niyyətin qarşısını alasınız! Sonuncu ümid yerim sizsiniz. Çox xahiş edirəm ki, bizim ailənin belə hakimlər tərəfindən qanının batırılmasına imkan verməyəsiniz. Mən həmçinin buradan prezidentimizə müraciət edərək, məni qəbul etməsini xahiş edirəm".

❑ M.MAHRIZLI

# İsrailin Qəzzaya hücumları davam edir: 172 ölü

## Bombardman nəticəsində 17 min fələstinli qaçqın düşüb, münaqişə Suriya və Livan ərazisinə sıçraya bilər

**İyulun 8-dən başlayaraq İsrail ordusu Qəzza zolağını bombalamaqda davam edir. İyulun 13-də yəhudi əsgərləri Qəzzanın şimal ərazilərinə quru əməliyyatları başlatsalar da, sonradan əməliyyat dayandırılıb. Hücum zamanı HƏMAS döyüşçüləri ilə baş verən atışmada 4 İsrail əsgəri yaralanıb, fələstinlilərin itkiləri haqda isə bilgi yoxdur.**



Ancaq ümumilikdə ötən 8 gün ərzində Qəzza zolağının davamlı olaraq atəşə tutulması nəticəsində ölənlərin sayı 172 nəfərə çatıb. 1000-dən artıq insan isə yaralanıb. BMT-nin məlumatına görə, Qəzzanın bombalanması zamanı həlak olanların 77 faizi mülki insanlardır. Eyni zamanda ölənlərin 36 nəfəri uşaqlardır. İsrail hökuməti isə əməliyyatların davam edəcəyini bəyan edib. Hökumətin toplantısında çıxış edən baş nazir Benyamin Netanyahu bildirib ki, əməliyyatlar uzun müddət davam edə bilər. Baş nazir əsas hədəflərinin bölgədə “sabitliyi əldə etmək” olduğunu bildirib. Baş nazir Netanyahu bildirib ki, İsrail bütün gözləntilərə hazır olduğunu və eyni zamanda kabinetdən bütün vəziyyətlərə hazır olmalarını istəyib.

Ancaq savaşın arealı getdikcə daha da böyüyür. Ötən həftə Livandan İsrailə raketlər atıldığı iddia olunmuşdu. İyunun 14-də isə Suriya ərazisindən İsrailə, daha dəqiqi, Colan təpələri bölgəsinə raket atıldığı iddiası irəli sürülüb. İsrailin “Jerusalem Post” qəzetinin məlumatına görə, bundan sonra İsrail ordusu Suriya ərazisindəki hədəfləri raket zərbəsi ilə vurub.

İyulun 14-də Fələstinin “İslami Cihad” qruplaşmasının hərbi qanadı açıqlama yayaraq İsrailin Netanya şəhərini raket atəşinə tutduqlarını bildirib. İlk dəfə istifadə olunan və yerli istehsal olan “Burak 100" raketləri Qəzzadan 90 kilometr məsafədə yerləşən Netanya şəhərini vurub.

Bu arada şiddətlənən bombardman nəticəsində artıq Qəzza sakinləri evlərini tərk edir. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, artıq 17 min fələstinli yardım sığınacaqlarına müraciət edib. Evlərini tərk edənlər Qəzzada BMT-yə məxsus olan sığınacaq kimi istifadə olunan məktəblərə yerləşdiriliblər. İsrailin Qəzzanın şimal bölgələrini bombalamaqla bağlı xəbərdarlığından sonra qaçqınların sayı daha da artıb.

Fələstin dövlətinin başçısı Mahmud Abbas bildirib ki, BMT baş katibinə müraciət edərək Fələstinin beynəlxalq mühafizə sisteminə daxil edilməsini istəyəcək. Səkkiz gün davam edən bombardman nəticəsində Qəzzada ölənlərin sayı 172 nəfərə çatsa da, İsraildən itki olmayıb. İsrail ordusundan bildirilib ki, son bir həftədə İsraildən Qəzzaya 1300 raket atılıb, Qəzzadan isə İsrailin müxtəlif bölgələrinə 800 ədəd raket və mərmi atılıb. İsrail ordusunun Fələstin polisinin rəisi Tayser əl-Batşın evini bombalaması nəticəsində 17 nəfər ölüb, polis rəisi özü isə ağır yaralanıb.

Beynəlxalq aləmin Qəzzada atəşkəs çağırışları isə hələ ki İsrailə təsir göstərmir. Ötən həftə BMT baş katibi, Rusiya prezidenti Qəzzada atəşi dayandırmaq çağırışı edib. Dünən Fransa və Britaniya xarici işlər nazirləri də bombardmanın dayandırılması çağırışını ediblər. Ancaq İsrail hakimiyyəti Qəzzadakı müqavimət ocağını susdurmaq üçün bütün vasitələrə əl atmaqdan çəkinmir. Ötən gün Qəzzadakı Fələstin hökuməti Amerikanın təklif etdiyi təslimçi atəşkəs sazişini imzalamaqdan imtina edib. BMT baş katibi Pan Gi Mun İsrail rejiminin təşkil edəcəyi hər hansı bir quru əməliyyatının Fələstin vətəndaşlarının itkilərini artıracağı barədə xəbərdarlıq edib. Təşkilatın rəsmi saytında verilən xəbər görə, bu barədə BMT mətbuat xidməti məlumat yayıb.

BMT Təhlükəsizlik Şurasının atəşkəs tələbinə baxmayaraq Qəzzada daha da ağırlaşan vəziyyətin vətəndaşlara təsiri üzündən BMT baş katibi Pan Gi Munun narahatlığı ifadə edilir. Gi.Munun gərginliyin azaldılması və qarşıdurmaların dayandırılmasının daha çox insan tələfatının qarşısı alınacağı və iki tərəfin də faydasına olacağı vurğulanır. Baş katibin hər iki tərəfdən də qarşıdurmalara son qoymağı tələb etdiyi ifadə edilir.

❑ KƏNAN

# “Ağ şəhər”i tikən Koreya şirkətinin nümayəndələrini Bakıda soydular

## Taksidə “Halla” şirkətinin direktor müavini və əməkdaşından 950 dollar, 600 manat və 3 ədəd telefon quldurluq yolu ilə alınıb

**Bakıda Koreya vətəndaşlarına qarşı quldurluq edən şəxs tutulub. “Yeni Müsavat”ın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət-Axtarış İdarəsi və Suraxanı Rayon Polis İdarəsinin 31-ci polis bölməsi əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində iyulun 11-də Koreya vətəndaşları San Sung Gugdan və Tun Tong Hyundan 950 dollar, 600 manat və 3 ədəd telefonu quldurluq yolu ilə almış Bakı şəhər sakini Təhməz Əliyev tutulub.**

“Yeni Müsavat”ın əldə etdiyi məlumatda deyilir ki, “Halla” şirkətinin direktor müavini San Sung Gugdan və şirkəti əməkdaşı Tun Tong Hyudan taksi sifarişi verərək Mərdəkan istiqamətinə getmək istəyiblər. Bu zaman taksi sürücüsü yoldan daha iki nəfəri götürüb. Naməlum şəxslər Mərdəkana çata-çatda Koreya vətəndaşlarının üstünə bıçaq çıxardaraq San Sung Gugdan və Tun Tong Hyundan 950 dollar, 600 manat və 3 ədəd telefonu götürüb qaçıblar. Cinayətkarlar ağ rəngli “Tofaş” markalı avtomobilə əyləşərək naməlum istiqamətə gediblər. Qarət olunan Koreya vətəndaşları bu barədə polisə məlumat veriblər. Keçirilən operativ axtarış əməliyyatı nəticəsində taksi sürücüsü Təhməz Əliyev tutulub. Hazırda digərlərinin axtarışı davam edir.

Qeyd edək ki, “Halla” şirkətlər qrupu iki əsas istiqamətdə - infrastruktur və inşaat, maşınqayırma və cihazqayırma üzrə ixtisaslaşıb. Şirkətin direktoru Chung Mongwondur. “Halla” şirkəti Bakıda avtomobil yollarının, yeni hava limanının inşasında iştirak edib. Hazırda şirkət Bakıda “Ağ şəhər” layihəsinin bir hissəsinin tikintisini həyata keçirir.

❑ Fərahim İLQAROĞLU

YENİ MÜSAVAT
N 179 (5888) 15 iyul 2014

# Abituriyentlər ziyarətgahlara axışır

“Mən istəyimi Allahdan diləyirəm, Mirmövsüm ağanın ruhu da bu diləyimin reallaşmasını tezləşdirir”

**Cəmiyyətimizdə əksəriyyət insanlar arzularının, istəklərinin ziyarətgahlara, pirlərə getməklə daha tez reallaşacağını düşünürlər. Bəzən əli hər yerdən üzülən insanlar problemlərlə mübarizə aparıb onu həll etmək əvəzinə, ya falçı yanına, ya da ziyarətgahlara üz tutur, nəzir deyir, qurbanlar kəsir. Hətta ziyarətgahlarda olan daşları üzərlərinə vuran, bununla da ağrı-acılardan qurtulacaqlarına inananlar, ziyarətgahların həyətindəki ağaclara parçalar bağlamaqla istəklərinin reallaşacağını düşünənlər də var. İnsanlarımız bu ocaqları özlərinə bir növ uğur talismanı, təsəlli yeri sayır.**

Biz də ziyarətgahlardakı vəziyyətlə yaxından tanış olmaq, orada gördüklərimizi və eşitdiklərimizi oxuculara çatdırmaq üçün onlardan birinə-Şüvəlanda yerləşən Ağa Seyid Əli Mirmövsümzadə ziyarətgahına yollandıq. Buranı ziyarət etmək istəyənlər iki ünvana - Ağanın doğulub boya-başa çatdığı İçərişəhərdəki evinə və Şüvəlanda dəfn olunduğu məzara üz tuturlar. Şüvəlanda yerləşən ziyarətgahda gündüzlər 1-ci mərtəbədə qadınlar, 2-ci mərtəbədə isə kişilər dualar edir. Axşamlar isə əksəriyyət ailəvi gəldiyi üçün bir yerdə-birinci mərtəbədə dualar edir.

Qəbul imtahanı ərəfəsi olduğu üçün ziyarətgahda kifayət qədər adam vardı. Onların əksəriyyəti də abituriyentlər idi. Maraqlıdır ki, abituriyentlərin bir qismi ziyarətgahları dolaşmaqla özünü ali məktəbə qəbul olunacağına inandırır. Başımızı bağlayıb içəri daxil oluruq. İçəridə hər kəs müxtəlif cür dualar edirdi. Əksəriyyət də imtahan verəcək olan gənc qızlar idi. Hər kəs fərqli yalvarışlar edirdi. Kimisi ali məktəbə daxil ola bilmək, kimisi isə ailəsindəki problemin həlli üçün dualar edirdi.

**İyulun 20-də imtahan verəcək gənc qız ağlaya-ağlaya yalvarırdı:** “Ay Mirmövsüm Ağanın cəddi, sənə qurban olum, elə et ki, mən ali məktəbə daxil olum. Məni başı aşağı etmə. Sənin cəddin mənə kömək olsa və mən universitetə girsəm söz verirəm ki, ömrümün sonuna qədər buranı ziyarətə gələcəyəm. İmtahan günümə qədər də hər gün gələcəyəm və nəzir qoyacağam”.

**Digər bir qadın isə əlindəki şəkli divarlara sürtərək bu cür yalvarış edirdi:** “Mirmövsüm Ağanın cəddi, sən özün kömək ol, oğlum imtahanda həyəcanlanmasın, yüksək bal yığsın və universitetin pulsuz fakültəsinə düşsün”.

**Digər bir qadın isə qızının sağalması üçün dualar edirdi:** “Qızım ayağa qalxsın, sağlamlığına qovuşsun, buranı dizi üstdə sürünərək ziyarət edərəm”.

Sonda isə bura ziyarətə gələnlər buradakı stolun üstünə gətirdikləri konfeti, qəndi tökür, qutuya da nəzirlərini salıb gedirlər. Kim istəsə bu konfet və qənddən götürüb evinə aparır, ziyarətə gələ bilməyənlərə verir.

**Ziyarətgahdan çıxan xanımlardan birinə yaxınlaşırıq. Təranə Məsimova deyir ki, nə vaxt buranı ziyarətə gəlib nə istəyib həyata keçib:** “Mən istəyimi Allahdan diləyirəm, Mirmövsüm ağanın ruhu da bu diləyimin reallaşmasını tezləşdirir”.

**Söhbətə qoşulan Sevda xanım isə buranı ziyarət edərkən bir rahatlıq tapdığını dedi:** “Buranı ziyarət edəndə elə bil ruhən dincəlmiş oluram. Özüm Lənkəranda yaşayıram. Bakıya hər gələndə ilk işim Mirmövsüm ağanı ziyarət etmək olur”.

**Vüsal Əhmədov da ali məktəbə daxil olsun deyə hər gün bura ziyarətə gəldiyini bildirdi:** “Bazar günü imtahandır. Artıq dərs oxumuram. Yeməklə doymayan yalamaqla doymaz. Hər gün bura gəlirəm. Dua edirəm ki, universitetə qəbul olum. Çox həyəcanlanıram. Allah məni arzuma çatdırsa, istədiyim universitetə qəbul ola bilsəm burada qurban kəsdirəcəyəm”.

**Dini ekspert Kənan Rövşənoğlu bildirdi ki, insan nə istəyirsə, Allahdan istəməlidir:** “Müqəddəs insanların qəbri olan yerə getmək yaxşıdır. Müqəddəs insanların qəbri olan yerlərdə gözəl bir aura olur. İnsanlar burada ruhən dincəlmiş olurlar. Ziyarətgahlara gedən insanlar nə istəyirlərsə, Allahdan istəməlidirlər. Daşı bədənə sürtmək, ağaclara parça bağlamaq şamanizmdən qalma bir ənənədir və bu düzgün deyil. Şamanizmin əlamətləri hazırda da bir sıra müsəlman dövlətlərində, o cümlədən qardaş Türkiyədə özünü daha qabarıq göstərir. Bunun İslam dini ilə bir əlaqəsi yoxdur. Qurani-Kərimin Nisa surəsinin 64-cü ayəsində də yazılır ki, "biz hər bir peyğəmbəri, ancaq ona Allahın izni ilə itaət olunsun deyə, göndərdik. Onlar (münafiqlər) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər".










❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

## Bir ana doğuş zamanı, biri isə abortdan sonra öldü

**Azərbaycanda doğuş zamanı daha bir ölüm hadisəsi qeydə alınıb. Modern.az Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən xəbər verir ki, iyulun 13-də Qazax rayon doğum evində Daş Salahlı kənd sakini Şəhla Abdullayeva doğuş zamanı dünyasını dəyişib.**

Hacıqabulda isə üç uşaq anası abortdan 12 gün sonra vəfat edib.

Mərhumun həyat yoldaşı Elşən Əzizovun APA-ya verdiyi məlumata görə, hadisə bu gün Hacıqabul Rayon Mərkəzi Xəstəxanasında qeydə alınıb.

Belə ki, iyulun 2-də Hacıqabul rayon Atbulaq kənd sakini, 1990-cı il təvəllüdlü, üç uşaq anası Əsmər Əli qızı Əzizovanın bətnində olan körpə abort vasitəsilə Hacıqabul Mərkəzi Rayon Xəstəxanasında götürülüb. Hadisədən iki gün sonra qadının halı pisləşdiyindən, yenidən əməliyyat olunub. Əməliyyat olunan qadın bu gün səhər saatlarında xəstəxananın reanimasiya şöbəsində ölüb.

Meyit müayinə olunmaq üçün Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Şirvan şəhər şöbəsinə aparılıb.

Cəlilabad sakini də doğuşdan dörd ay sonra vəfat edib.

Mərhumun yaxınlarının APA-ya verdiyi məlumata görə, xəstə böyrək çatışmazlığından Cəlilabad Mərkəzi Rayon Xəstəxanasında vəfat edib.

Qeyd edək ki, martın 18-də Cəlilabad rayon sakini, 1989-cu il təvəllüdlü Gülnarə Şəmiyeva doğuşla əlaqədar Cəlilabad Mərkəzi Rayon Xəstəxanasının doğum şöbəsinə daxil olub. Təbii doğuş alınmadığı üçün dərhal əməliyyata qaldırılan qadının əkiz oğlan uşaqlarının öldüyü məlum olub.

G.Şəmiyevada doğuşdan sonra böyrək çatışmazlığı yaranıb.

## Bakı çimərliklərində 3 nəfər boğuldu

**İyulun 13-də Bakı ətrafındakı çimərliklərdə 3 nəfər boğularaq ölüb. Lent.az-ın məlumatına görə, Sabunçu rayonu Pirşağı qəsəbəsi yaxınlığında çimərlikdə 1962-ci il təvəllüdlü Alışov Nadir Xanqulu oğlu və 1992-ci ildə anadan olmuş İsmayılov Yusif İslam oğlu boğularaq ölüb. Hər iki şəxsin meyiti sudan çıxarılıb.**

Digər hadisə isə Fatmayidə qeydə alınıb. 14 yaşlı Maşalla Ağatağıyev suda batıb.


### Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**



### Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



### Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**



### Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbəbəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dən sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**

# Bu kubok Almaniyaya halal, halal, halaldır...








## Bu da son: 24 ilik kubok həsrəti də, mundial da bitdi!

**Braziliya 1974-cü ildən sonra çempionluğu 1994-cü ildə bayram etdi. 24 il sonra! İtaliyada 24 il həsrətində olduğu "Dünya kuboku"na 2006-cı ildə qovuşdu. Almaniyanın 1990-cı ildə çempion olduğu tarixdən 2014-cü il mundialına qədər 24 il keçirdi. Almaniya 24 illik həsrətə son qoydu... Argentina bu möcüzəvi statistikaya görə, 2010-cu ildə çempion olmalı idi. Onun yerini İspaniya tutdu...**

Bu çox maraqlı statistik tapıntını oxucularımızdan biri final gecəsi göndərmişdi. "Almaniya bu statistikaya görə axşam çempion olacaq!" əminliyi ilə. Necə də dəqiq... Almaniya 24 il sonra "Dünya kuboku"na yiyələndi. Almaniya bu uzun yolu bir neçə baş məşqçi dəyişə-dəyişə gəlmişdi. Yoaxim Löv səkkiz il yorulmadan çalışdı və nəhayət, komanda istəyinə çatdı. Argentina formasını geyinib həmin günü Bakı küçələrində gəzişənlərin final gecəsinin sonunda necə məyus olduğunu başa düşürəm. Argentina elə komandadır ki, ona məhz belə azarkeşlik etmək lazımdır. Amma Argentinanın gözü kubokda da qalmamalıdır. Bu kubok Almaniyaya halal, halal, halaldır...Argentina bu kuboku ya vəlvələdən-ya zəlzələdən Almaniyanın əlindən alsaydı, Braziliya çempionatının dadını qaçıracaqdılar. Hamı bilir ki, Messinin komandası finala elə bu oyunçunun qolları sayəsində gəlib çıxmışdı. Amma Almaniya divarını aşmaq asan deyil ki... Argentina həmin gecə mundialda ən yaxşı görüşünü keçirdi, almanlarla bərabər səviyyədə oynadı, müdafiəyə xeyli problemlər yaratdı, əlverişli imkanlardan istifadə edə bilsəydi...Braziliya millisinin fiaskosuna baxmayaraq, əla təşkil olunmuş XX dünya çempionatı məntiqi sonluqla da bitdi. Bu ədalətli final oldu. Almaniya haqq etdiyini qoltuğuna vurub Avropaya apardı.

Almaniya bu mundialda Portuqaliyanı (4:0), ABŞ-ı (1:0), Qana ilə heç-heçə edərək (2:2) "G" qrupunu 7 xalla başa vurmuşdu. 1/8 finalda isə Almaniya Əlcəzairi 2:1, 1/4 finalda isə Fransaya 1:0 hesabı ilə qalib gələrək yarımfinala vəsiqə qazanmışdı. Yarımfinalda Almaniya Braziliya görüşü ərəfəsi yazmışdıq ki, bu oyunu kim udsa, o da çempion olacaq. Almaniya Braziliyanı udmadı, 7:1 hesabı ilə rəzil edərək finala gəldi. Finalda isə...

***

Oyuna saatlar qalsa da, komandalar qarşılıqlı hücumlara başlamışdı. Argentina millisinin hücumçusu Serxio Aquero matçda qol vuracağını, Almaniyanı isə qorxu içində olduğunu demişdi: "Axı Almaniyanın rəqibi başqa bir əla komanda - Argentinadır". **Argentina millisinin baş məşqçisi Alexandro Sabelya daha soyuqqanlı danışmışdı:** "Almanlara başlarını qaldırmağa imkan verməməliyik". "Mən heç bir rəqibdən qorxmuram" deyən Almaniya millisinin baş məşqçisi Yoahim Löv oyunun penaltilər seriyasına getməyəcəyinə inamını ifadə etmişdi. Alman futbolçu Miroslav Kloze də iddialı açıqlama verərək "qələbə qazanmaq sırası bizdədir. Bunun üçün gücümüz və xarakterimiz var. Kubok bizimdir" demişdi. Final ərəfəsi təkcə emosiyalar deyil, hətta kişisəl ehtiraslar da coşmuşdu. Argentina millisinin qapıçısı Serxio Romeronun həyat yoldaşı finalda qələbə üçün həyat yoldaşına bir həftə Rihanna ilə birlikdə olmağa şərait yaradacağını söyləmişdi.

**Final gecəsinə damğasını vuran sözləri isə Messi demişdi:** "İndiyə kimi idmanda qazandığım bütün şəxsi uğurları dünya çempionluğuna dəyişərdim".

Tərəflər mundial tarixində 3-cü dəfə finalda-bu dəfə "Marakana"da üz-üzə gəldilər. Almaniya, 986-da baş tutan ilk final qarşılaşmasında cənubi amerikalılara 3:2 uduzmuşdular. 4 il sonra finalda almanlar 1:0 hesablı qələbə qazanmışdılar. Bu final...

Almaniya millisinin baş məşqçisi Klozeni start heyətə və orta xətdə salmışdı ki, bu da dünya çempionatlarının bombardirinə olan inamı göstərirdi. Alman müdafiəçi Mertezake, Argentinadan isə Anxel di Mariya start heyətdə yox idi. Oyunun ilk dəqiqələrində aydın oldu ki, Argentina millisinin taktikasında xüsusi dəyişiklik olmayıb və rəqibi əks-hücumlarda cəzalandırmağa çalışacaqlar. Almanlar isə topa daha çox nəzarət etməklə rəqibin cərimə meydançasına ya "ikinci mərtəbədən", ya da Filipp Lamın qərar tutduğu sağ cinahdan daxil olmağı sınayırdılar. 20-ci dəqiqədə Toni Kross almanları bədbəxt edəcəkdi, amma İquain əla vəziyyətdən topu qapıya vura bilmədi. Almaniya müdafiəsi, xüsusilə Hevedes Messini etibarlı qorusa da, 39-cu dəqiqədə argentinalı hücumçu cərimə meydançasınadək irəlilədi, amma son anda topu qapıya dəqiq yönəldə bilmədi. Şürlenin ilk hissənin ortalarında meydana daxil olması almanların hücumda oyununun kəsərini artırdı. Hevedesin birinci hissənin əlavə vaxtında vurduğu top qapı dirəyinə dəydi.

İlk yarıda bu mundialda oyunu heç alınmayan Məsud Özil yalnız epizodik hallarda nəzərə çarpdı. Bu cür məsuliyyətli oyunda Lövün ona etibar etməsi, doğrusu, anlaşılan da deyildi. Birinci hissədə almanların topa nəzərçarpacaq dərəcədə nəzarət etdiyini statistika da göstərdi. 67 faiz...

İkinci hissədə Serxio Aquero Lavessinin yerinə meydana daxil olması Argentinanın oyununu canlandırdı və Messi əlverişli mövqeyə çıxsa da, topu qapıya vura bilmədi. Amma Aqueronu da alman müdafiəçi Hümmels etibarlı qorudu. İquainın yerinə Palasiyo meydana buraxılsa da, o da əlverişli iki vəziyyətdən qol vura bilmədi. 80-cı dəqiqədə Toni Kross bu dəfə almanların qəhrəmanı ola bilərdi. Amma o, topu cərimə meydançasının xətti yaxınlığında qapıya dəqiq vura bilmədi. Oyunun son dəqiqələrində argentinalıların davranışlarından onların ya yorulduğu, ya da əlavə vaxtda bəxtlərini sınamaq istədikləri təəssüratı yaranmışdı. Kloze ikinci hissədə fəal ola bilmədi və o əsas vaxtın son dəqiqələrində Mario Götse ilə əvəzləndi. Usta futbolçunu gənc oyunçu əvəz etdi. Kim nə biləydi ki...İkinci hissə də Almaniyanın topa nəzarət üstünlüyü ilə bitdi: 59 faiz.

Əlavə vaxtın elə ilk dəqiqəsində əvvəl almanlar, sonra isə argentinalılar əlverişli imkandan yaralana bilmədilər. Almaniya









əlavə vaxtda tam gücü ilə hücuma qoşulduğundan müdafiədə xeyli boşluqlar yaranırdı. Löv, deyəsən, penaltilərdən qorxurdu və riskə gedirdi. Şvanştaygerə qarşı yumruğu ilə oynayan Aqueranı hakim ikinci sarı vərəqi verib meydandan qovmalıydı. Amma hakim buna risk etmədi. Şvanştayger də sifətindən qan dama-dama meydana qayıtdı. Hər şey penaltilər seriyasına doğru gedirdi. 113-cü dəqiqədə isə... Argentina yıxıldı. Götse gözəl zərbə ilə Serxio Romeronun qapısına yol tapdı. Bu, sadəcə, qol deyildi. Bu milyonlarla azarkeşi kədər göz yaşına boğan, milyonları sevincindən küçəyə tökən, Almaniyaya 24 illik həsrətində olan kuboku gətirən qol idi. Serxio Rameronun Rihanna arzusunu gözündə qoyan qol! Götse Almaniyanın qəhrəmanı oldu.

Argentinanın göz yaşları məni heç tərpətmədi. Özü yıxılan ağlamaz. Messinin son saniyələrdə cərimə zərbəsini qapıdan xeyli aralı vurmasından sonra səslənən final fitində acı gülüşü isə təsirli idi. Messi gülürdü. Özünə gülürdü. Pley-off mərhələsində oyun şəraitində bir qol vura bilməyən Messiyə "Qızıl top" verildə isə ulduz futbolçunun sifətində anlaşılmaz ifadə vardı. Yeni bu nə?

***

Braziliya mundialı bir seriala kimi bizi ekran başına yığdı. Bu bir ayda sevindik, kədərləndik və yuxusuz qaldıq. Braziliya çempionatı bitdi. Rusiya televiziyaları final gecəsi 4 il sonra dünya çempionatının bu ölkədə olacağını tez-tez təkrarlamağa başladılar.

Ruslar hələ tələsməsinlər. Qarşıda Avropa çempionatı var. İki il sonra...Fransada görüşənə-






YENİ MÜSAVAT

Son səhifə

N 179 (5888) 15 iyul 2014



## Ölümə saniyələr qalanda əfv

İranda edam cəzası alan şəxs son anda ölümdən xilas olub. Məlumatlara görə, bir neçə gün əvvəl adı açıqlanmayan şəxsi öldürən kişiyə şəriət məhkəməsi edam cəzası verib. Qatil dar ağacının quraşdırıldığı meydana gətirilib. Dar ağacına asıldıqdan sonra ayağının altındakı stul çəkilib. Məhkum can çəkişdiyi anda dar ağacının ətrafındakı qələbəlik arasında qarışıqlıq yaranıb. Həmin anda ölmüş şəxsin ailəsi "bağışlayırıq" deyə qışqırmağa başlayıb. Polislərin "bağışlayırsınızmı" sualına "bağışlayırıq" deyə cavab verən ailə üzvləri qatilin edam edilməsinə imkan verməyiblər. Can çəkişdiyi anda dar ağacından endirilən qatil ölümdən xilas olduğu üçün ağlamağa başlayıb.



## Ən təhlükəli selfi çəkildi

İspaniyanın Pamplona şəhərində hər il keçirilən San-Fermin bayramı çərçivəsindəki "Buğalardan qaçış"da bu dəfə yeni "rekord" vurulub. Milli.az "European"a istinadən bildirir ki çılğına dönmüş buğalardan qurtulmağa çalışaraq küçə ilə qaçan adamlardan biri əlindəki mobil telefonu yuxarı tutaraq selfisini çəkib. Polis indi həmin şəxsi arayır. Buğanın qarşısında qaçaraq dünyanın ən təhlükəli selfisini çəkmiş şəxsi 3200 avro məbləğində cərimə gözləyir.

"Bu şəxs selfi çəkərkən yanında olan insanların hərəkətini ləngidib və onların həyatları üçün real təhlükə yaradıb", - polisin açıqlamasında deyilir. Pamplona şəhərində hər il keçirilən Fiesta de San Fermin 9 gün davam edir.

# Yayın ortasında qar yağdı

Rusiyada yayın ortasında anomal təbiət hadisəsi yaşanıb. Çelyabinsk vilayətində Zlatousta şəhərinin sakinləri səhər gözlərinə inanmayıblar. Belə ki, onlar iyul ayının ortasında qar yağışı müşahidə ediblər. Şəhər sakinlərinin sözlərinə görə, iyulun 12-də güclü leysan yağıb. Daha sonra isə çovğun başlayıb.



"Bu sulu qar yox, əsl qar idi. Düzdür, qar tez əridi, ancaq görüntü möhtəşəm idi". Qar yağışı Satki şəhərində də müşahidə edilib. Yerli mətbuatın yazdığına görə, Çelyabinsk vilayətinin bəzi yerlərində qarın hündürlüyü 5-10 sm-ə çatıb. İyul ayında heç vaxt belə hadisə müşahidə edilməyib.

## Qarpızın faydaları

Tərkibindəki laykopen maddəsinin köməyi ilə xərçəng xəstəliyinin qarşısını alan qarpız ürək və böyrəklər üçün də olduqca faydalıdır. Qarpızın tərkibində olan laykopen maddəsi ürəyin funksiyasını yaxşılaşdırır, qan dövranını tənzimləyir. Qarpızın 95%-nin sudan ibarət olduğunu deyən mütəxəssislər təmizləyici xüsusiyyətə malik olan qarpızın böyrəklərin daha yaxşı işləməsinə də kömək etdiyini bildirirlər.

Bədən orqanlarının zərərli maddələr nəticəsində sıradan çıxmasının xərçəng xəstəliyini yaradan ən mühüm amillərdən olduğunu deyən həkimlər məhz qarpızın zərərli toksinlərin orqanlara yapışmasının qarşısını aldığını bildirirlər. Qida üzrə mütəxəssislərin bildirdiyinə görə, qarpız artıq çəkidən xilas olmaq üçün də əvəzsiz meyvədir. Mütəxəssislər artıq çəkidən əziyyət çəkən insanlara qarpızın xüsusilə qabığa bitişik ağımtıl hissəsini yeməyi məsləhət görürlər. Qarpızın bu "imkanlarından" faydalanmaq üçün onun yeməkdən əvvəl yeyilməsi məsləhət görülür.





## İtə daş atmağa 250 dollar cəza

Kanadada qəbul edilən yeni qanun layihəsi dünya mediasının gündəmindəki ən önəmli məsələlərdən birinə çevrilib. Məlumatlara görə, artıq Kanadada polis itlərinə və atlarına daş atan hər kəsə 250 dollar pul cəzası veriləcək. Polislər Kanadada ən çox imtiyaza malik olan dövlət qulluqçularından olduqlarından onların atlarına və itlərinə də xüsusi qayğı göstərilir. Məhz bu səbəbdən də polislərə məxsus olan itlərə və atlara daş, şüşə atanlara, qışqıranlara, qorxudanlara və onlara icazəsiz toxunanlara pul cəzası veriləcək. Bələdiyyə məclisində müzakirə edilən qanun layihəsində əvvəlcə cəzanın 1000 dollar olması haqda fikirlər irəli sürülmüşdü. Lakin deyilən məbləğ çox yüksək olduğu üçün 250 dollara endirilib.




**QOÇ** - Ağır fiziki işlərə bir qədər ara verməyiniz tələb olunur. Əks təqdirdə, səhhətinizdə mənfi fəsadlar baş qaldıra bilər. Nahardan sonra şəxsi büdcənizi artırmaq üçün imkanlar qazanacaqsınız.

**BUĞA** - İstirahət haqqında düşünməyin. Çünki indiki məqamda bütün perspektivləriniz aktivliyinizdən asılıdır. Qarşıdakı həftədə görəcəyiniz işləri indidən planlaşdırın. Maraqlı görüşlər də labüddür.

**ƏKİZLƏR** - İxtiyarınızda olan bu təqvim sizin üçün o qədər də rəngarəng keçməyəcək. Yaxın olduğunuz şəxslərlə münaqişəniz gözlənilir. Fəaliyyətdə də xoşagəlməzliklər mümkündür. Odur ki, tədbirli olun.

**XƏRÇƏNG** - Hər mənada əhəmiyyətli gündür. Bir tərəfdən çoxdan görmədiyiniz adamlarla rastlaşmağınız, digər tərəfdənsə qarşılıqlı münasibətlərdə rəvan davranışlar sizə rahatlıq bəxş edəcək.

**ŞİR** - Əksər sahələrdə sevindirici hadisələrlə rastlaşma ehtimalınız var. Lakin bu, maliyyə məsələləri ilə bağlı olmayacaq. Hər halda, ovqatınıza mənfi təsir göstərən amil gözlənilmir.

**QIZ** - Bəzi cəhdləriniz uğursuzluqla nəticələnsə də, buna görə qəmlənməyə dəyməz. Çünki Göy qübbəsi nahardan sonra sizə gözlənilməz sevinc bəxş edəcək. İşdə uğurlarınız da mümkündür.

**TƏRƏZİ** - Əsas enerjinizi sevgi münasibətlərinə yönəldin. Çünki yeganə uğurunuz bu sahə ilə bağlı olacaq. Fəaliyyət zəminində isə hansısa irəliləyişi gözləməyə dəyməz. Yalan danışmayın.

**ƏQRƏB** - Astroloji göstəricilər saat 18-ə qədər uğurlu məqamlar yaşayacağınızı bəyan edir. Sonrakı müddəti isə neytral şəkildə başa vurun. Bu gün varlanma ehtimalınız böyükdür.

**OXATAN** - Qarşınızda böyük perspektivlər durur. Hansı addım atacağınızdan asılı olan gələcək situasiyalar məsuliyyət hissinizi də artırmalıdır. Ağlınız kəsməyən işlərə ciddi yanaşmayın.

**OĞLAQ** - Ciddi sınaqlarla baş-başa qaldığınızı nəzərə alan ulduzlar hər hansı riskin yolverilməz olduğunu vurğulayır. Qərar çıxararkən mövcud vəziyyəti və imkanlarınızı göz önünə gətirin.

**SUTÖKƏN** - Bu gün sizə mütləq kimsə kənardan dəstək verməlidir. Yoxsa passivliyiniz aradan qalxmayacaq. Pulla bağlı problemlərinizin həllinə çalışın. İctimai yerlərdə az görünün.

**BALIQLAR** - Yaxşı olar ki, ağır fiziki işlərə ara verəsiniz. Əsas gücünüzü diplomatik görüşlərə həsr edin. Mənfi enerjili Ay bu gün sizin bürcdə qərar tutduğu üçün daha diqqətli olun, xüsusən də səhhətlə bağlı.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İsti asfaltı əritdi



Amerikanın Yellovstone beynəlxalq parkında baş verən hadisə görənləri təəccübləndirib. Belə ki, parkın ətrafında havanın temperaturu 70 dərəcəyə qədər qalxıb. Meteorologların sözlərinə görə, son zamanlar havanın temperaturu normadan 22 dərəcə çoxdur. Havanın temperaturunun bu qədər artması yollarda asfaltın əriməsinə səbəb olub. Məhz bu səbəbdən də yollarda avtomobillərin hərəkəti dayandırılıb. Yolar düzəldilənə və havanın temperaturu aşağı düşənə qədər yollarda avtomobillərin hərəkətinə icazə verilməyəcək və park müvəqqəti olaraq bağlanacaq.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565